QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 138 (5369) 4 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik"

*Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*

Səh 2



KİV nümayəndələri: Azərbaycan Prezidenti jurnalistlərin dostu, mətbuat və söz azadlığının qarantıdır



9

Heydər Əliyev Fondunun dəstəyi ilə Bakının uşaq evlərinin sakinləri Moskvaya səfər ediblər



8

Azərbaycanın daxili işlər naziri Gürcüstanda səfərdədir



10

Ermənilər əsgər ölümlərini gizlədir



10

Son altı ayda Türkiyəyə 300 mindən çox azərbaycanlı turist səfər edib




5

Ermənistanın çöküşü - yezidilərə qarşı diskriminasiya və qanlı cinayətlər



12

11

Təhsil müəssisəsinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb



13

Bu gün Bakıda 37, bəzi bölgələrdə 42 dərəcə isti olacaq



16

"Barselona"nın təklifi 120 milyona çatdı



# İlham Əliyev: “Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik”

## Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.***

Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev Prezident İlham Əliyevə parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, bu park həm rayon sakinlərinin, həm də qonaqların asudə vaxtlarını səmərəli keçirmək üçün üz tutduqları gözəl məkanlardan biridir. Burada istirahət üçün hər cür şərait yaradılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən Su Elektrik Stansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, son illər ölkə iqtisadiyyatının bütün sahələri kimi elektroenergetika sistemi də ən müasir tələblər səviyyəsində yenidən qurulub, bu istiqamətdə köklü dəyişikliklər aparılıb. İcra edilən layihələr arasında yeni su elektrik stansiyalarının inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Balakəndə yeni inşa edilən Su Elektrik Stansiyası da bu baxımdan böyük rol oynayır. Bu cür layihələrin icrası bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, eyni zamanda, regionların inkişafına təkan verməklə, əlavə iş yerlərinin açılmasına səbəb olur.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiya barədə məlumat verdi.

Bildirildi ki, Balakən çayı üzərində tikilmiş və ümumi gücü 1,5 meqavat olan bu stansiyanın təməlini Prezident İlham Əliyev 2010-cu ildə qoyub. Stansiya texniki göstəricilərinə görə olduqca səmərəli və müasirdir. Layihə çərçivəsində burada hündürlüyü 5,6 metr olan bənd tikilib. Bəndin maksimum eni 28, qaşının eni isə 4 metr təşkil edir. Burada saniyədə 63 kubmetr suburaxma qabiliyyəti olan sutullayıcı, saniyədə 23 kubmetr suburaxma qabiliyyəti olan suqəbuledici yaradılıb. Stansiyanın inşası zamanı uzunluğu 2 min metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan üç hidroturbin və hidrogenerator quraşdırılıb. Bundan başqa, ərazidə turbin zalı və stansiyanın idarəetmə binası da inşa edilib.

Qeyd edildi ki, bu layihə olduqca əhəmiyyətlidir. İldə 10 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malik stansiya rayonun tələbatının 15 faizini, Balakən şəhərinin tələbatının isə 25-30 faizini ödəyəcək. Dövlətimizin başçısı Balakən Su Elektrik Stansiyasını işə saldı.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balakən şəhərində inşa olunan Bayraq Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Balakən Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı muzeylə tanış oldu. Məlumat verildi ki, muzeyin tikintisinə 2017-ci ilin fevralında başlanılıb və bu ilin iyulunda başa çatdırılıb. Balakən Rayon İcra Hakimiyyətinin sifarişi əsasında inşa edilən muzey binasının ümumi sahəsi 510 kvadratmetrdir.

**Ardı Səh. 3**





# İlham Əliyev: “Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik”

## *Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*

Əvvəli Səh. 2



Binada zallar və konfrans otağı yaradılıb. Ekspozisiya zalında maraqlı eksponatlar sərgilənir. Burada müxtəlif dövrlərdə Azərbaycanda atribut kimi qəbul edilmiş bayraqlar, gerblər, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzalarının və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Muzeydə Azərbaycanın Səfəvilər, Ağqoyunlular, Qaraqoyunlular və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918-1920-ci illərdəki və 1991-ci ildəki xəritələri də var. Güc strukturlarının geyimlərinin, tarixin müxtəlif dövrlərində ölkəmizdə istifadə edilən sikkələrin, pulların nümayiş olunduğu ekspozisiyalar da maraq doğurur. Bu cür layihələrin həyata keçirilməsi, həmçinin milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun





açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi. Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən bu il istifadəyə verilməsi nəzərdə tutulan və kəndlərarası 40 avtomobil yolu layihələrindən biri olan Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun uzunluğu 24,5 kilometr, eni isə 10 metrdir. Avtomobil yolu texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə inşa edilib. Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakəndə “ABAD Mərkəz”in açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə rayonun Katex kəndində yerləşən “Balxurma” müəssisəsinin 2016-2017-ci illər üzrə fəaliyyəti və gələcək planları ilə bağlı məlumatları əks etdirən stendlərə baxdı. Qeyd edildi ki, “Balxurma” müəssisəsinin işçilərinin sayı 15 nəfərdən 85 nəfərə çatdırılacaq. İlkin 5 milyon manat kapital qoyulan müəssisəyə əlavə olaraq 12 milyon manat investisiya cəlb ediləcək. Məhsul daxili bazardan əlavə MDB, Avropa və ərəb ölkələrinə ixrac olunacaq.

**Ardı Səh. 4**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

4 avqust 2017-ci il

# İlham Əliyev: "Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik"

## *Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*



Əvvəli Səh. 3

"Balxurma" müəssisəsinin gələcək planlarına yeni korpusların tikintisi, gündəlik istehsal sayının 45 min ədəd xurmadan 150 min ədəd xurmaya, iş yerlərinin sayının isə 200 nəfərə çatdırılması daxildir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov "ABAD" layihəsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Son illərdə ölkəmizdə kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan layihələr arasında "ABAD" layihəsinin xüsusi yeri var. "ABAD" Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən və 2016-cı il sentyabrın 23-də yaradılan publik hüquqi şəxsdir. O, Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına dəstək verməyi nəzərdə tutan yeni sosial innovasiya konsepsiyasıdır. Layihənin məqsədi kiçik və orta sahibkarlığın inkişafına, məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, ölkədə regionların və kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Qeyri-kommersiya və sosialyönümlü qurum olan "ABAD" yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının "ideyadan rəflərə" daşınmasına kömək edir. "ABAD" istehsalın planlaşdırılmasından məhsulların satışına qədər olan bütün biznes prosesinin idarə edilməsini həyata keçirir, yığılan gəlirin ailələrə köçürülməsini təmin edir. Ailələr öz bizneslərini qurmaq üçün ictimai və özəl qurumlarla birbaşa qarşılıqlı əlaqə saxlamır. Bu funksiya "ABAD" tərəfindən həyata keçirilir. "ABAD" ailələr üçün bacarıqların inkişaf etdirilməsi təlimləri də təşkil edir, "vahid pəncərə" prinsipindən istifadə edərək ailə məhsullarının sertifikatlaşdırılmasını təmin edir. Layihənin mütəxəssisləri ailələrə bazaryönümlü qablaşdırma həlləri və məhsulların dizaynı ilə bağlı kömək göstərirlər, supermarket şəbəkəsində ailə məhsullarının satışını, habelə onların daşınması və saxlanmasını idarə edirlər. "ABAD" əl işlərinin satışını öz İncəsənət mərkəzlərində təşkil edir. Bu ilin martında İçərişəhərdə "ABAD"ın ilk İncəsənət Mərkəzi açılıb. İyunda isə ikinci İncəsənət Mərkəzi Heydər Əliyev Beynəlxalq Aeroportunda istifadəyə verilib. Balakəndə "ABAD Mərkəz"in yaradılması da olduqca önəmlidir.





Prezident İlham Əliyev "ABAD" layihəsi çərçivəsində Balakəndə və digər rayonlarda istehsal edilən məhsullara baxdı.

Balakən rayonundan əl işləri hazırlayan dörd sənətkar "ABAD" layihəsinin iştirakçısıdır. Ümumilikdə Balakənin və qonşu rayonların potensialını, layihəyə olan marağı, bu səbəbdən də artan iş həcmini nəzərə alaraq, Balakəndə regional "ABAD Mərkəz"in təsis edilməsi məqsədəuyğun hesab olunub. Burada layihə çərçivəsində 280 kvadratmetrə yaxın sahəsi olan ikimərtəbəli inzibati bina inşa edilib. Binadakı iş otaqları zəruri avadanlıqla təchiz olunub. Burada, həmçinin təqdimat və görüş zalları, laboratoriya da fəaliyyət göstərəcək. Binada ümumi sahəsi 640 kvadratmetrdən çox olan müxtəlif temperaturlu anbar kompleksi də yaradılıb.

"ABAD Mərkəz" ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Tədbir iştirakçılarını salamlayan dövlətimizin başçısı çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Azərbaycan dövləti Balakən rayonunun inkişafına çox böyük diqqət göstərir. Bu diqqət və qayğı nəticəsində Balakən rayonunda işlər yaxşı gedir, rayon inkişaf edir, bir çox önəmli sosial, iqtisadi layihələr, biznes, infrastruktur layihələri icra edilir. Bir sözlə, Balakəndə hərtərəfli inkişaf təmin olunur və əlbəttə ki, gələcək illərdə bu inkişaf daha da sürətlə gedəcək:

"Bu günə qədər rayonda bir çox önəmli sosial layihələrin icrası təmin edilmişdir. Bölgələrimizdə ən böyük xəstəxanalardan biri Balakəndə bir neçə il bundan əvvəl tikilmişdir, təxminən 200 çarpayılıq gözəl xəstəxanadır. Olimpiya Mərkəzi, Gənclər Evi, digər sosial obyektlər inşa olunmuşdur, məktəb tikintisi sürətlə gedir. Mənə verilən məlumata görə, 26 yeni məktəb tikilib, bir neçə məktəb təmir edilib. Yəni, bu, çox önəmli sosial sahədir və bu sahə çox böyük vəsait tələb edir, Azərbaycan dövləti bu vəsaiti təmin edir.

Balakən rayonunda qazlaşdırma 100 faiz səviyyəsindədir. Biz hələ ki, heç ölkə üzrə bu səviyyəyə çatmamışıq. Ölkə üzrə qazlaşdırmanın səviyyəsi 93 faizdir, Balakəndə isə 100 faiz. Elektrik enerjisi ilə bağlı problemlər həllini tapır, kənd yolları salınır. Biz artıq bu gün növbəti kənd yolu layihəsinin açılışını qeyd etdik. Növbəti illərdə digər kəndlərə də yollar salınacaq.

Ardı Səh. 5

# İlham Əliyev: "Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik"

## *Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*

Əvvəli Səh. 4





Siz yaxşı bilirsiniz ki, zəlzələdən sonra Azərbaycan dövləti zərərçəkmiş vətəndaşlara öz maddi yardımını göstərdi, 7 mindən çox fərdi ev ancaq Balakən rayonunda dövlət hesabına tikilmişdir, 2 mindən çox ev əsaslı təmir edilmişdir. Yəni, bu, hesab edirəm ki, bir göstəricidir. Çünki ağır vəziyyətə düşən soydaşlarımızın problemlərinin həlli üçün dövlət öz dəstəyini əsirgəmədi və bu gün Balakən rayonunda sosial-iqtisadi inkişaf yaxşı səviyyədədir. "ABAD Mərkəz"in yaradılması da bunun bariz nümunəsidir. Bu, sayca ikinci "ABAD Mərkəz"dir. Birincisi Masallıda yaradılıb, ikinci isə Balakən rayonunda. Bu mərkəzin fəaliyyəti nəticəsində minlərlə insan işlə təmin olunacaq, özünüməşğulluq proqramı sürətlə icra ediləcək. Mən bu barədə artıq bütün müvafiq tapşırıqları vermişəm ki, növbəti illərdə özünüməşğulluq proqramı Azərbaycanda geniş vüsət almalıdır, dövlət isə, öz növbəsində, bu şəraiti yaradır. Mənə verilən məlumata görə, Balakən rayonunda vətəndaşlara 12 konteyner təqdim edilib və o konteynerlərdə indi artıq məhsul istehsal olunur. Bax, bu mürəbbələr sizin məhsulunuzdur, gözəl qablaşdırılıb və həm daxili bazara çıxarılır, həm də xarici bazarlara çıxarılacaq.

İndi siz yaxşı bilirsiniz ki, biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik. Bu bölgənin imkanları, iqlim şəraiti və ənənələri nəzərə alınır. Bölgədə çox geniş vüsət alan sahələr fındıqçılıqla, baramaçılıqla, tütünçülüklə bağlıdır. Siz - burada yaşayan insanlar yaxşı görürsünüz ki, son bir-iki il ərzində bu sahədə çox böyük artım var və bu, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına birbaşa müsbət təsir göstərir. Bir il ərzində Balakən rayonunda 2 min 200 hektarda yeni fındıq bağları salınıb və bağların sahəsi 7 min hektara çatıbdır. Ancaq növbəti illərdə əlavə minimum 3 min hektarda fındıq bağları salınacaq və bütün bunlar dövlət hesabına olan məsələlərdir. Yəni, dövlət lazım olan tingləri gətirir, suvarma işlərini təşkil edir, kəndlilərə şərait yaradır ki, onlar bu ağaclara qulluq edərək öz maddi vəziyyətlərini daha da yaxşılaşdırsınlar və xaricə valyuta gətirən məhsullar çıxara bilsinlər.

Buna görə növbəti illərdə bu bölgənin - həm Balakən rayonunun, həm qonşu rayonların ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün daha da ciddi addımlar atılacaqdır. Balakən rayonunda hər dəfə olarkən burada gedən quruculuq, abadlıq işləri məni çox sevindirir. Məni daha çox sevindirən odur ki, Balakən rayonunda yaşayan insanlar Vətənə bağlı insanlardır, vətənpərvər insanlardır. Azərbaycanda əsrlər boyu yaşayan bir çox xalqların nümayəndələri Balakən rayonunda bir ailə kimi, dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşayır və bu, bizim böyük sərvətimizdir. Azərbaycanda milli və dini zəmində mövcud olan çox gözəl vəziyyət bir çox ölkələr üçün də maraq doğurur və indi bizim təcrübəmiz öyrənilir. Bizim siyasətimiz isə çox aydındır, açıqdır, Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir. Bizim həmrəyliyimiz, milli müxtəlifliyimiz böyük sərvətimizdir." Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatala rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında dahi şəxsiyyətin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Prezident İlham Əliyevə abidənin ətrafında və parkda görülən işlər barədə məlumat verdi. Bildirildi ki, parkda geniş abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatalada "Azərtütün" MMC-nin tütün emalı zavodunun fəaliyyəti ilə tanış oldu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Sahibkarlar Konfederasiyası (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və "Azərtütün" MMC-nin idarə heyətinin sədri Fazil Rüstəmov dövlətimizin başçısına zavod barədə ətraflı məlumat verdilər. Bildirildi ki, müəssisənin illik gücü bir növbədə 3300-3600 tondur. "Azərtütün" MMC 2007-ci ildə təsis edilib. Cəmiyyətin bu zavodu isə 2010-cu ildə istifadəyə verilib. Zavod ABŞ, İtaliya və Bolqarıstan istehsalı olan müasir avadanlıqlarla təchiz olunub. Hazırda Zaqatala, Şəki və Qax rayonlarında Bolqarıstandan alınmış hər birinin tutumu 10 ton yaş tütün olan cəmi 180 tütünqurutma kamerasından ibarət 3 tütün qəbulu-qurudulması məntəqəsi fəaliyyət göstərir. Hər məntəqə mövsüm ərzində 10 min ton yaş tütün qəbulu və 1000 tona yaxın quru tütün əldə etmək gücünə malikdir. Məntəqələrdə qurudulmuş tütün emal olunmaq üçün "Azərtütün" MMC-nin tütün emalı zavoduna təhvil verilir. Hər bir məntəqədə 90 nəfər çalışır ki, onların da 25 nəfəri daimi işçidir. Müəssisə ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatalada "AzRose" MMC-nin tikintisi davam edən qızılgül yağı istehsalı müəssisəsi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına müəssisə barədə məlumat verildi. Bildirildi ki, müəssisənin ümumi ərazisi 3 hektardır. Burada istehsalat bölməsi, anbar, ofis və digər infrastruktur obyektləri tikilib. Ərazidə suvarma məqsədləri üçün su tutumu 5 min kubmetr olan süni göl yaradılıb, damcı suvarma sistemi qurulub, kənd təsərrüfatı texnikaları alınıb, Türkiyədən bu sahədə təcrübəli aqronomlar dəvət edilib. Ərazidə 3 artezian quyusu qazılıb, qaz və elektrik xətləri çəkilib, müasir işıqlandırma sistemi qurulub və yaşıllıq zolaqları salınıb.

Diqqətə çatdırılıb ki, 2016-cı ilin oktyabr-noyabr aylarında Türkiyədən və Bolqarıstandan dəvət olunmuş mütəxəssislərin tövsiyələri əsasında Zaqatala rayonunun Aşağı Tala kəndində gülçülüyün inkişaf etdirilməsi məqsədilə 107 hektar torpaq sahəsi müəyyənləşdirilib. Bolqarıstandan gətirilmiş tinglərdən 82 hektarda "Dəməşq qızılgülü" və 25 hektarda "Lavanda" gülü növləri üzrə gül plantasiyaları salınıb. Bu plantasiyalarda ilkin mərhələdə təxminən 600 ton gül ləçəyinin toplanması nəzərdə tutulub. "Dəməşq qızılgülü"ndən istehsal olunan yağ həm məhsuldarlığına, həm də keyfiyyətinə görə ən yaxşısı hesab olunur. Bolqarıstandan gətirilmiş "Lavanda" gülü növünün Fransa və Türkiyə "Lavanda" növlərindən yağlılıq dərəcəsi 20 faiz çoxdur. İllik gücü 1250 ton yaş gül, 250 litr qızıl gül və 6 min litr "Lavanda" gül yağı olan müəssisədə istehsal edilən yağlar "AzRose" adı ilə bazarlara çıxarılacaq. Azərbaycan Prezidenti İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib:

"Mən sizi ürəkdən salamlayıram. Zaqatala rayonunda yeni kənd təsərrüfatı və emal sənayesi sahəsi yaradılıb. Mən buna çox şadam. Çox yaxşı inkişaf göstəricisidir. Çünki Azərbaycanın hər bir bölgəsi, hər bir sahəsi uğurla inkişaf etməlidir. Ölkəmizdə qızılgül istehsalı, xüsusilə Zaqatala rayonunda qızılgül yağının istehsalı əsrlər boyu inkişaf edib. Sovet dövründə bu sahəyə böyük diqqət göstərilmişdir.

Ardı Səh. 6

# İlham Əliyev: “Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik”

## *Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*

Əvvəli Səh. 5

Ondan sonrakı illərdə nədənsə bu sahəyə o qədər də böyük diqqət göstərilmirdi. İndi mənim göstərişimlə bu sahə bərpa edilir. Yeni müasir müəssisə tikilir, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Yüz hektardan çox sahədə qızılgül əkilibdir. Burada istehsal olunacaq qızılgül yağı həm daxili bazara, həm də xarici bazarlara ixrac ediləcək. Beləliklə, mənə verilən məlumata görə, artıq burada yüzlərlə insan işlə təmin edilib. 500-dən çox daimi və mövsümi iş yeri yaradılıb. Burada işləyənlər yaxşı maaş alacaqlar və ölkəmizə xeyir gətirəcəklər. Çünki indi əsas vəzifəmiz təbii imkanlarımızdan, iqlim şəraitimizdən istifadə edərək maksimum dərəcədə kənd təsərrüfatını inkişaf etdirməkdir.

Zaqatala rayonunda və qonşu rayonlarda hazırda çox sürətli inkişaf gedir. Ənənəvi kənd təsərrüfatı sahələri bərpa edilir, o cümlədən tütünçülük, baramaçılıq, fındıqçılıq geniş vüsət alıb. Biz gələcək illərdə dövlət proqramlarının qəbulu və icrası nəticəsində əkin sahələrini böyük dərəcədə artıracağıq və beləliklə, çox güclü kənd təsərrüfatı potensialı yaradılacaqdır. Qızılgül yağı isə bizim üçün ənənəvi olan sahədir. Mütəxəssislərin rəyinə görə, bu yağı istehsal etmək üçün ən münbit şərait, torpaq, iqlim məhz Zaqatala rayonundadır. Ona görə, bu gözəl yeni müəssisə burada yaradılıb. Görürəm ki, artıq böyük sahədə qızılgül kolları əkilib. Əminəm ki, siz - burada işləyənlər yaxşı çalışacaqsınız, həm özünüz, həm dövlət üçün xeyir gətirəcəksiniz.”







X X X

Rayon ictimaiyyətinin nümayəndələri adından çıxış edən İlhamə Mehdiyeva göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Sonra Prezident İlham Əliyev qızılgül sahələrinə baxdı. Sonda xatirə şəkli çəkdirildi.

Avqustun 3-də Zaqatalada 110/35/10 kV-luq “Bəhmətli” elektrik yarımstansiyasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına yarımstansiyanın texniki göstəriciləri barədə məlumat verdi. Stansiyanın ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb.

Stansiyanın binasında ümummilli lider Heydər Əliyevin həm sovet dövrü, həm də müstəqillik illərində Azərbaycanda elektroenergetika sahəsinin inkişafındakı xidmətlərindən bəhs edən fotostend yaradılıb. Binada işçilərin yüksək səviyyədə fəaliyyəti üçün otaqlar bütün zəruri avadanlıqla təchiz edilib.

Bu yarımstansiya Zaqatala rayonunun elektrik təchizatının yaxşılaşdırılması, rayonun elektrik enerjisi verilişində yaranan fasilələrin qarşısının alınması məqsədi ilə tikilib. Əvvəllər 110 kV-luq 2-ci Zaqatala hava xəttindən budaqlanma vasitəsilə qidalanan 1x6,3 MVA gücündə olan “Bəhmətli” yarımstansiyası Bəhmətli və digər kəndləri elektrik enerjisi ilə təmin edərkən ciddi problemlər yaşanırdı. Yarımstansiyanın bir transformatorla qidalanması elektrik enerjisinin verilişində fasilələrin yaranmasına səbəb olurdu. Bunu nəzərə alaraq, 110 kV-luq 2-ci Zaqatala hava xəttindən qidalanan 1 kilometr uzunluğunda birdövrəli “Bəhmətli” budaqlanması ikidövrəli budaqlanma xəttinə çevrilərək yenidən qurulub. Yarımstansiyada 2x10 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Eyni zamanda, yarımstansiyada 110 və 35 kV-luq açıq paylayıcı şəbəkə inşa edilib. Həmçinin yarımstansiyadan 35/10 kV-luq “Muğanlı” və 35/6 kV-luq “Qaraçay” yarımstansiyalarını qidalandıran 35 kV-luq Muğanlı hava xəttinin çıxışı kabellə əvəzlənib. Tam yenidən qurulan yarımstansiyadakı qurğularda müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizə və avtomat sistemlər, yarımstansiyanın məsafədən idarə olunması üçün SCADA dispetçer sisteminə qoşulmasını təmin edən avadanlıqlar quraşdırılıb. Dövlətimizin başçısının müəyyənləşdirdiyi “İşıqlı Azərbaycan” layihəsinə uyğun olaraq “Azərişıq” ASC ölkənin bütün regionlarında olduğu kimi, şimal-qərb bölgəsində də istehlakçıların dayanıqlı, fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində genişmiqyaslı tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir. Zaqatalada inşa edilən 110/35/10 kV-luq “Bəhmətli” yarımstansiyası da bu istiqamətdə icra edilən layihələrdəndir. Sonra Prezident İlham Əliyev yarımstansiyanı işə saldı. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev rayonda görülən işlər, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, son illər rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda bir çox sosial infrastruktur obyektləri tikilib, kənd təsərrüfatı sahəsində istehsal müəssisələri yaradılıb.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qax rayonuna səfəri çərçivəsində Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli avtomobil yolunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı. “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, rayonun Fıstıqlı, Marsan və Cüdüllü kəndlərinə gedən 7 kilometrlik giriş yolları ilə bərabər avtomobil yolunun ümumi uzunluğu 23,5 kilometrdir. Əvvəllər torpaq-çınqıl örtüklü olan iki hərəkət zolaqlı avtomobil yolu hazırda asfalt-beton örtüklüdür.

Ardı Səh. 7

# İlham Əliyev: “Biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik”

## *Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarına səfər edib*

**Əvvəli Səh. 6**

Layihəyə uyğun olaraq, yol genişləndirilərək 10 metr enində yeni yol yatağı inşa edilib. Yenidənqurma işləri zamanı Fıstıqlı, Marsan və Cüdüllü kəndlərinə gedən yolların üzərində yeni körpülər də inşa olunub. Körpülərin uzunluğu 9,5 və 24 metr təşkil edir. Hər iki körpünün eni isə 11 metrdir. Bundan başqa, yolboyu 102 metr uzunluğunda müxtəlif diametrli 9 suötürücü dəmir-beton borular quraşdırılıb. Layihə çərçivəsində yol boyunca 468 təhlükəsizlik dirəyi, 166 müxtəlif yol nişanı və 16 məlumatverici lövhə quraşdırılıb, yolun üfüqi nişanlanma xətlərinin çəkilişi işləri aparılıb.

Prezident İlham Əliyevin 2016-cı il 22 avqust tarixli Sərəncamına əsasən inşa edilən Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli avtomobil yolu 7 mindən çox əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirir. Dövlətimizin başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax rayonuna səfəri çərçivəsində Lələpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına təsərrüfat barədə ətraflı məlumat verildi. Bildirildi ki, 3,4 hektar sahədə salınan bağda 130 fındıq ağacı var. Böyük məhsuldarlığın gözlənildiyi təsərrüfatda bu il 2 tondan çox məhsulun yığılması planlaşdırılır. Qeyd olundu ki, Qax rayonunda fındıqçılığın tarixi ənənələri var. Əhalinin böyük hissəsi bu təsərrüfatlarda çalışır. Son illər təkcə Tasmalı inzibati ərazi dairəsində 800 hektara yaxın sahədə fındıq bağları salınıb. Lələpaşa kəndində isə 150 hektar sahədə fındıq yetişdirilir.

Prezident İlham Əliyevin fındıqçılığın inkişafı ilə bağlı tapşırıqlarına əsasən həyata keçirilən tədbirlər nəticəsində bu sahədə böyük irəliləyişə nail olunub. Əhalidə ölkəyə ən çox valyuta gətirən strateji məhsullar arasında olan fındığın becərilməsinə maraq daha da artıb. Mövcud imkanlarla kifayətlənməyən şəxsi təsərrüfat sahibləri yeni fındıq bağlarının salınmasına, fındıq pöhrələrinin alınıb becərilməsinə xüsusi maraq göstərirlər. Bunun nəticəsidir ki, indi ərazidə 1,4 və 1,5 hektar sahədə yeni fındıq bağları salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax-Qorağan-Zaqatala avtomobil yolunun Qax-Qorağan hissəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı. “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov məlumat verdi ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində inşa olunan Qax-Qorağan-Zaqatala avtomobil yolunun Qax-Qorağan hissəsinin əsaslı şəkildə yenidən qurulması uğurla və yüksək keyfiyyətlə aparılıb. Layihənin başlanğıcı Qorağan-Qax-Zaqatala avtomobil yolunun 14-cü kilometri, yəni, Qax şəhərinin girişi, sonu isə Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 125-ci kilometridir. Uzunluğu 29,8 kilometr olan yolun 8,6 kilometrlik hissəsində tikinti işləri tam yekunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, iki hərəkət zolaqlı yolda qazma və dolğu işləri, yeni yol yatağının və yol əsasının tikintisi yekunlaşdırılaraq asfalt döşənməsi işləri görülüb. Yol üzərində suötürücü borular tikilib, beton kanal və drenaj işləri görülüb, rabitə və su xətlərinin yerinin dəyişdirilməsi də yekunlaşdırılıb. Yol mühüm turizm marşrutuna daxil olmaqla yanaşı, əhatə dairəsinə, xüsusilə Qax və Zaqatala rayonlarının 37 min nəfərdən çox əhalisi olan 22 yaşayış məntəqəsinə nəqliyyat xidmətini yaxşılaşdırmağa imkan verəcək, həmçinin Qax və Zaqatala rayonları arasında hazırda mövcud olan yol məsafəsi xeyli qısalacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax rayonunda Bayraq Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, inşasına 2016-cı ildə başlanılan Bayraq Meydanı kompleksi istifadəyə tam hazırdır. Ərazisi üç hektar olan kompleksin inşası rayonun daxili imkanları hesabına həyata keçirilib. Azərbaycan Respublikasının dövlət bayrağı hündürlüyü 62 metr olan bayraq dirəyində dalğalanır. Geniş yaşıllaşdırma işlərinin görüldüyü kompleksdə müasir işıqlandırma sistemi quraşdırılıb. Bundan əlavə, bayraq meydanının ərazisində ümumi sahəsi 730 kvadratmetr olan muzey binası inşa edilib. Muzeydə milli bayrağımızın təbliği ilə bağlı xüsusi eksponatlar və dövlət atributları sərgilənir. Ekspozisiya zalında Azərbaycanda mövcud olmuş dövlətlərin bayraqlarına və bayraqla bağlı atributlara geniş yer verilib. Bu eksponatlar Azərbaycan dövlətçiliyinin keçdiyi tarixi yolu əks etdirməklə yanaşı, həm də gənc nəsil üçün xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı irəli sürdüyü təşəbbüslərə dəstək baxımından regionlarda həyata keçirilən bu cür layihələr bir daha əminlik yaradır ki, Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir və onun gələcəyi parlaqdır.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham



Əliyev Qax rayonuna səfəri çərçivəsində tütün qəbulu məntəqəsində yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün inkişaf etdirilməsi də qarşıya məqsəd qoyulub. Qax rayonu bu baxımdan böyük potensiala malik bölgələrimizdən biridir. Bu sahənin inkişafında Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında” Sərəncamı böyük əhəmiyyət kəsb edir. Sərəncam ölkəmizdə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək, bu sahənin potensial imkanlarından səmərəli istifadə etmək, rəqabət qabiliyyətini yüksəltmək və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahını daha da yaxşılaşdırmaq məqsədi daşıyır. Bu da Azərbaycanda aqrar sektorun ən perspektivli sahələrindən olan tütünçülüyün inkişafı üçün atılan addımların təqdirəlayiq olduğunu göstərir. Təsadüfi deyil ki, dünyada gün ərzində satış dəyəri təxminən 4 milyard dollar olan tütün ticarətindən illik qazanc bir trilyon dollara çatır. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alır. Azərbaycanda da tütünçülüyün inkişafı üçün lazım olan bütün şərtlər mövcuddur. Bu sektorda həm böyük ənənə və təcrübə, həm keçmiş strukturdan qalma mütəxəssis bazası, emal fabrikləri, ucuz və yerli xammal əldə etmək və nəhayət, daxili və xarici bazara çıxış imkanları var.

Dövlətimizin başçısına məlumat verildi ki, sovet dövründə respublika üzrə tütün tədarükünün xeyli hissəsi Qax rayonunun payına düşürdü. Respublikada ən çox tütün tədarükü də həmin dövrə - 1986-cı ilə təsadüf edirdi. Hazırda yeni tütün təsərrüfatlarının salınması, tütünçülüyə dövlət qayğısının getdikcə artması bu sahədə çalışanlara stimul olub. Fermerlərlə bağlanan müqavilələrin sayı da bunu təsdiqləyir. Əgər ötən il fermerlər tərəfindən məntəqəyə 30 müraciət daxil olmuşdusa, indi bu göstərici 60-ı keçib. Bu il rayonda 6500-7000 ton yaşıl tütün tədarükü gözlənilir. Artıq məntəqədə tütün qəbuluna başlanıb.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax rayonunda 110/35/10 kV-luq yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi mərasimində iştirak edib. Yarımstansiya barədə dövlətimizin başçısına məlumat verən “Azərışıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev bildirdi ki, “Azərışıq” tərəfindən regionlarda yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi əhalinin elektrik enerjisinə tələbatının ödənilməsində mühüm nailiyyətlərin əldə olunmasına geniş imkanlar açıb. Bu işlər Qax Elektrik Şəbəkəsinin xidməti ərazisindəki yarımstansiyaları da əhatə edib və bütövlükdə rayonda genişmiqyaslı tədbirlər həyata keçirilib. İstehlakçıların elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq üçün şəhərin Qaxbaş adlanan hissəsində və İlisu kəndində yenidənqurma işləri aparılır. Bu istiqamətdə yeni müasir tipli komplekt transformator məntəqələri quraşdırılıb, 10 və 0,4 kV-luq şəbəkə yenidən qurulur. Həmçinin Qax şəhərinin Qaxbaşla yanaşı, Beynəlmiləl adlanan ərazisində 15 ədəd 10/0,4 kV-luq transformator məntəqəsinin 10-0,4 kV-luq şəbəkəsinin yenidənqurma işləri tamamlanmaq üzrədir. Həmin ərazidə 10 kV-luq İlisu, Qaxbaş, Beynəlmiləl hava xətlərində dayaqlar basdırılıb, naqillər və kabellər çəkilib. Rayonun İlisu, Güllük, Qorağan, I və II Şəhər, Qıpcaq, Qaxbaş, Qaşqaçay, Asfaltzavod, Tasmalı hava xətləri yenidən qurulub, müasir komplekt transformator məntəqələri quraşdırılıb, 0,4 kV-luq şəbəkə yenilənərək müasir kabellərlə əvəzlənib. Ümumilikdə son iki ildə Qax Elektrik Şəbəkəsinin xidməti ərazisində bir çox hava xətləri dəyişdirilib, köhnə tipli transformator məntəqələri 26 yeni komplekt transformator məntəqələri ilə əvəzlənib. Qax Elektrik Şəbəkəsində 2500-dən çox istismara yararsız sayğac dəyişdirilib, 926 yeni sayğac quraşdırılıb. Prezident İlham Əliyev yarımstansiyanı işə saldı. Qax, Zaqatala, Balakən, İsmayıllı, Qəbələ, Şəki, Sonda xatirə şəkli çəkdirildi.

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qaxda inşa olunmuş 180 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, uşaq bağçasının inşasına 2014-cü ilin iyulunda başlanılıb. Tikinti işləri ötən ay başa çatdırılıb. Ərazisi 2124 kvadratmetr olan bina üçmərtəbəlidir. Müxtəlif yaş qruplarının fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, idman zalı və yeməkxanada da yüksək şərait var.

# Heydər Əliyev Fondunun dəstəyi ilə Bakının uşaq evlərinin sakinləri Moskvaya səfər ediblər














***Heydər Əliyev Fondunun dəstəyi ilə Bakının 1, 2 və 3 saylı uşaq evlərinin bir qrup sakini üçün Moskvada yay istirahəti proqramı təşkil olunub. Fonddan AZƏRTAC-a bildiriblər ki, iyulun 26-dan avqustun 3-dək davam edən səfər müddətində Rusiyanın “Bizim Ev” Ailə Tərbiyəsinə Kömək Mərkəzinin qonağı olan 8-13 yaşlı bakılı uşaqlar və yeniyetmələr Moskvanın müxtəlif görməli yerlərini ziyarət edib, bir-birindən fərqli istirahət, eyni zamanda, əyləncə proqramında iştirak ediblər.***

Məktəblilər Moskva zooparkında Avropanın qədim heyvanxanalarından biri ilə tanış olublar. Bakıdakı uşaq evinin sakinləri, həmçinin “Poklonnaya qora”nı ziyarət ediblər. Qonaqlara parkın tarixi barədə geniş məlumat verilib. “Moskva City” kompleksində müşahidə meydançasında olan məktəblilər buradan paytaxtın gözəl mənzərəsini seyr ediblər.

Qızıl meydan və Aleksandr bağına səfər uşaq evlərinin sakinlərində gözəl təəssüratlarla yadda qalıb. Azyaşlı qonaqlar çayda gəzintiyə də çıxıblar. Rusiyanın əsas okeanariumu -”Moskvarium”da dəniz heyvanlarının şousu isə onlarda böyük marağa səbəb olub.

Tarixi və müasir turizm yerləri barədə maraqlı, ətraflı məlumatlarla müşayiət olunan hər bir gəzinti uşaqlarda gözəl anlar yaşadıb.

“Bizim Ev” Mərkəzinin təşkil etdiyi piknikdə rus mətbəxinin təamlarını dadan uşaqlar həm də “Azərbaycan mətbəxi gecəsi”ndə plov, dolma, qutab və milli mətbəximizin digər ləziz nümunələrini hazırlayıblar. Maraqlı mədəni və əyləncə proqramından məmnunluqlarını ifadə edən uşaqlar səfərin təşkilinə görə Heydər Əliyev Fonduna, gözəl qonaqpərvərlik göstərən “Bizim Ev” Mərkəzinə təşəkkür ediblər.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və vitse-prezidenti Leyla Əliyevanın Azərbaycandakı uşaq evlərinin sakinlərinin təlim-tərbiyəsində, ailə sevgisi ilə əhatə olunmasında rolu xüsusi qeyd edilib. Uşaq evlərinin Fond tərəfindən daim dəstək və qayğı ilə əhatə olunduğu, valideyn himayəsindən məhrum şəxslərin təhsilinə, onların asudə vaxtlarının təşkilinə xüsusi əhəmiyyət verildiyi bildirilib. Fond tərəfindən bu dəfə Moskvada təşkil olunan proqram uşaqların gözəl istirahət etmələrinə, dünyagörüşlərinin artmasına və yeni dostlar qazanmalarına imkan yaradıb.

# KİV nümayəndələri: Azərbaycan Prezidenti jurnalistlərin dostu, mətbuat və söz azadlığının qarantıdır

***Prezident İlham Əliyevin Sərəncamı ilə jurnalistlər üçün tikilmiş ikinci binada 255 mətbuat işçisinin mənzillə təmin olunması fonunda dövlətimizin başçısına KİV təşkilatlarından, redaksiya kollektivlərindən, media nümayəndələrindən minnətdarlıq məktubları gəlməkdə davam edir. Məktublarda mənzillərin paylanmasında Prezidentin şəxsən iştirak etməsi, həmçinin üçüncü binanın təməlinin qoyulması ölkə rəhbərliyinin mətbuata yüksək diqqət və qayğısının təzahürü kimi səciyyələndirilir.***



AZƏRTAC Prezidentin rəsmi saytına istinadla xəbər verir ki, məktub müəllifləri dövlətimizin başçısını jurnalistlərin dostu, mətbuat və söz azadlığının qarantı hesab etdiklərini yazırlar. Onlar mətbuatın inkişafı istiqamətində həyata keçirilən tədbirləri təqdir edir, buna görə minnətdarlıqlarını bildirirlər.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov yazır: "Möhtərəm Prezident, Siz yeni yaşayış binasının açılışını edərək 255 jurnalistə və onların ailə üzvlərinə sözlə ifadə edilməsi mümkün olmayan hədsiz sevinc və inanılmaz qürur hissi yaşatdınız. Sıralarında tanınmış mətbuat orqanlarını, jurnalist təşkilatlarını, elektron informasiya resurslarını birləşdirən Azərbaycan Mətbuat Şurası buna görə Sizə ölkəmizin jurnalist ictimaiyyəti adından dərin minnətdarlığını bildirir".

Jurnalistlərin Prezidentlə hər görüşünün nəinki media ictimaiyyəti, bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət daşıdığını qeyd edən Mətbuat Şurasının sədri məktubunda dövlətimizin başçısının jurnalistlər üçün inşa edilmiş binanın açılış mərasimindəki proqram xarakterli çıxışının ölkə rəhbərliyinin media siyasətinə inamı və əminliyi bir daha artırdığını vurğulayır: "Media təmsilçilərimiz Sizi ölkədə söz və ifadə azadlığının təminatçısı hesab edirlər. Kütləvi informasiya vasitələrimizin vətəndaş cəmiyyəti, demokratik, hüquqi dövlət quruculuğundakı missiyasının ətraflı təhlilini verməyiniz, apardığınız müqayisə və paralellər qətiyyətlə onu deməyə əsas verir ki, təməlini ümummilli liderimiz Heydər Əliyevin qoyduğu, Sizin yüksək səriştə və bacarıqla davam etdirdiyiniz media siyasəti qələm sahiblərimizin yeni uğur və müvəffəqiyyətlər qazanmasına öz töhfəsini verəcək. Uğurlarımız isə bu gün daha böyükdür. Hazırda Azərbaycan mediası Qafqaz regionunda maddi-texniki təminat, yaradıcılıq dəstxətti, operativlik, dəqiqlik, qərəzsizlik və digər keyfiyyətlər baxımından lider mövqeyə malik olmaqla, dünyanın regionla bağlı mühüm informasiya mənbəyidir.

Siz jurnalistlərimizin əbədi dostusunuz. Üçüncü dəfə "Jurnalistlərin dostu" mükafatını qazanmağınız da bundan xəbər verir. Hesab edirik ki, cəmiyyətin gözgüsü sayılan medianın seçimini şərtləndirən ən mühüm amil dövlət başçısı kimi, 2003-cü ildən indiyədək gördüyünüz işlərə bəslənilən dərin rəğbətin ifadəsidir. Biz jurnalistlər üçün Sizinlə dost olmaq böyük şərəf və məsuliyyətdir. Dəyərli vaxtınızı ayırıb jurnalistlərlə səmimi və səmərəli görüş keçirməklə Azərbaycan mətbuatı tarixində növbəti mərhələnin başlanğıcını qoydunuz. Bəyan edirik ki, hər zaman etimadınızı doğruldacaq, Sizin şəxsinizdə Azərbaycan Prezidenti ilə dostluğumuza daim sadiq qalacağıq".

Dövlətimizin başçısına digər bir məktub "Lider TV və Radio-Azərbaycan" MMC-nin prezidenti Ədalət Əliyev tərəfindən ünvanlanıb. O yazır ki, Prezident İlham Əliyevin şərəfli tarixə malik Azərbaycan mətbuatının tərəqqisi istiqamətində gördüyü işlər, kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi dəstək, media nümayəndələrinə qayğı və diqqəti dünya miqyasında təqdir olunan nümunəvi təcrübədir. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə iki çoxmərtəbəli yaşayış binasının tikilməsi, üçüncü binanın təməlinin qoyulması media təmsilçilərinə dövlət tərəfindən növbəti qayğının təzahürüdür. Bu, eyni zamanda, azad sözə verilən qiymət, jurnalistlər üçün yeni ümidlər, daha əzmlə çalışmaq üçün stimuldur.

Məktubda daha sonra deyilir: "Sevindirici haldır ki, ikinci yaşayış binasında mənzil alan 255 nəfərin arasında "Lider TV və Radio-Azərbaycan" MMC-nin 6 əməkdaşı da var. Bununla da "Jurnalist şəhərciyi"ndə mənzillə təmin olunan "Lider"çilərin sayı 8-ə çatıb. "Jurnalistlər şəhərciyi"ndə yaşamağın mənəvi dəyəri maddi dəyərindən daha yüksəkdir. Bir vətəndaş üçün onun əməyinin məhz dövlət başçısı tərəfindən qiymətləndirilməsindən ali mükafat ola bilməz. Sizin jurnalistlərə qayğınızı, mediamızın inkişafını ölkəmizin ümumi inkişaf strategiyasının tərkib hissəsi kimi qəbul edir, buna görə minnətdarlığımızı bildiririk.

Göstərdiyiniz bu qayğı və etimadı doğrultmaq üçün bundan sonra da bu şərəfli missiyanı layiqincə yerinə yetirəcək, dövlətçiliyimizin inkişafı, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində fəaliyyətimizi davam etdirəcəyik".

Media işçiləri üçün tikilmiş ikinci binada mənzillə təmin olunanlar arasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev də var. O, Prezidentə ünvanladığı məktubda özünün və ailəsinin sonsuz sevinc hisslərini ifadə edərək yazır: "Prezident tərəfindən bizə göstərilən bu qayğının mənəvi dəyəri, sözün əsl mənasında, hədsiz və hüdudsuzdur. Bir vətəndaş olaraq Sizin kimi mətin, qətiyyətli, ədalətli və xeyirxah Prezidentimizə güvənir və bundan qürur duyuram. Ulu öndər Heydər Əliyevin irsinə sadiq olaraq, yürütdüyünüz uğurlu daxili və xarici siyasətə, dövlətçiliyə sədaqətlə xidmət etmək, ölkəmizin həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə töhfə vermək naminə yorulmadan çalışmaqda davam edəcəyəm. Gündəlik fəaliyyətimdə Sizin etimadınızı doğrultmaq həyatımın ən ali məqsədlərindən biridir".



## Kolxoz sədri adı uğrunda mübarizə davam edir!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Ənənəvi müxalifətin kolxoz təfəkküründən çıxa bilməməsi, əslində, "hakimiyyətə gəlib sözümüzü deyəcəyik" iddiaları ilə daha çox özünü sübuta yetirməkdədir. Yalnız diktə etmək və avtoritarizm xarakterini əks etdirən bənzər təfəkkürün isə əsas ziyanı, söz yox ki, yenə düşərgə "liderlər"inin özlərinə dəyir.***

Ötən müddət ərzində ictimai rəy dəfələrlə bunun şahidinə çevrilib. Ancaq özlərini hər kəsdən "ağıllı" hesab edən həmin "fiqurlar" unudurlar ki, kənardan heç də istədikləri kimi görünmürlər. Hətta ictimai rəyi qoyaq bir kənara, elə müxalifətin özündə də, beləleri istehza hədəfinə çevrilirlər. Beləliklə, düşərgədə "kolxoz sədri" adını qazanmaqdan ötrü, nə az - nə çox, düz 25 ilə yaxındır ki, bir-biri ilə didişən, höccətləşən, qırışan, qapışan, çarpışan, datrışan, küsüb-barışan "liderlər" axırda heç nəyə nail ola bilməyərək, sadəcə, özlərini rüsvay etməklə məşğuldurlar. Seçkilərdə və s. önəmli ictimai-siyasi hadisələr ərəfəsində xalq dəfələrlə bunların daxili aləmlərindəki gülünc və nəticəsi bəlli olmayan iddialarının şahidinə çevrilib.

Maraqlısı da budur ki, bütün post-seçki zamanlarında "demokratikləşməyə" başlayan həmin "fiqurlar", seçkilər bitər-bitməz, yenidən sədrlik etdikləri qurumlarında antidemokratikliyə, diktatorluğa və avtoritarizmə geri dönürlər. Məgər baş verən kütləvi istefalar, səsli-küylü qarşıdurmalar və çırpılan qapılar bunu dəfələrlə isbat etməyibmi?

Yeri gəlmişkən, elə bu mövzu ətrafında fikirlərimi cəmləyərkən, internetdəki yazıları incələyərkən, rastıma "VİP" adlı müxalifət partiyasının söz deyənlərindən birinin - sədr müavini Ramil Hüseynovun hələ 2015-ci ildə düşərgədəki vəziyyəti şərh edən açıqlaması çıxdı. Düşündüm ki, həmin sözləri daxil edim elə bu köşəmə. Doğru sözə nə deyəsən? Məsələn, hələ parlament seçkiləri ərəfəsində, o demişdi ki, "əgər özünü həddən artıq ağıllı sayıb, mən nə deyirəm, o da düzdür" diktəsi davam etsə müxalifət bu il keçiriləcək parlament seçkilərində də uğursuzluğa düçar olacaq". Nə olar ki, müxalifətçidir, amma həqiqət həqiqətdir, qardaş. Dediyi də oldu. Hələ bu, harasıdır? Müxalifətçi funksioner deyib ki, hələ də müxalifətdə kolxoz davranışlarını özündə qoruyub-saxlayan və ondan qurtulmaq üçün daxili gücləri çatmayan liderlər var: "Bəziləri həyatda hələ özünü sosial varlıq kimi təsdiq etməyiblər. Amma baxırsan ki, ölkəni idarə etmək iddiasındadırlar. Ətraflarına isə özlərinə bənzər şəxsləri yığıblar. Onlarla nə nəticə olacaq? Bir sözlə, daxilində iftiraçı, xəyanətkar, rəzil virus daşıyanlar və o cür insanları ətrafına toplayanlar heç bir uğur qazana bilməzlər. Həmin insanlar bu cameədən çəkilsələr, daha yaxşı olar".

Bəli! Söhbət də, məhz budur - viruslar. Belə viruslar hələ də ictimaiyyət arasında qalmaqdadırlar, üstəlik, həm də "kolxoz sədrləri" kimi. Necə deyərlər, dövran dəyişir, siyasət modelləri də az qala kosmik məcrada inkişaf edir, bizim müxalifətçilər isə "kolxoz sədri" adı uğrunda didişirlər, höccətəşirlər, qırışırlar, qapışırlar, çarpışırlar, dartışırlar...



## Türkiyə Azərbaycandan təbii qaz idxalını artırıb

Türkiyənin təbii qaz idxalında Azərbaycanın payı 15,96 faizə çatıb. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatı (EPDK) məlumat yayıb. Bu ilin may ayında Türkiyə Azərbaycandan 595,09 milyon kubmetr təbii qaz idxal edib. Ötən ilin may ayında isə Türkiyənin ölkəmizdən təbii qaz idxalı 475,46 milyon kubmetr olmuşdu. Bu ilin aprelində Türkiyə Azərbaycandan 576,84 milyon kubmetr təbii qaz idxal edib. Ümumilikdə cari ilin yanvar-may aylarında isə Azərbaycandan Türkiyəyə 2 milyard 768,66 milyon kubmetr təbii qaz ixrac edilib.

## "Naxçıvan Muxtar Respublikasının seolitləri, mövcud istifadəsi və perspektivləri" kitabı işıq üzü görüb

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının müdiri Günel Məmmədovanın "Naxçıvan Muxtar Respublikasının seolitləri, mövcud istifadəsi və perspektivləri" kitabı işıq üzü görüb. Akademiyanın Naxçıvan Bölməsinin informasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, geologiya-mineralogiya elmləri doktoru Məmməd Çıraqovun elmi məsləhətçiliyi və redaktorluğu, kimya elmləri doktoru Bayram Rzayev, kimya elmləri doktoru Famil Sadıqov və geologiya-mineralogiya elmləri doktoru Musa Məmmədovun rəyləri ilə nəşr olunan kitab ön söz, giriş, üç fəsil və ədəbiyyat siyahısından ibarətdir.

Nəşrdə müasir analiz metodlarından istifadə etməklə Naxçıvan Muxtar Respublikasının təbii minералı - seolitin termiki davamlılığı, dehidratlaşma xüsusiyyətləri, sərt təsirlərə qarşı davamlılığı, ion-mübadilə xassələri öyrənilib, seolitlərə xas olan quruluş kəmiyyətləri hesablanıb. Təbii seolitlərin quruluşları, tərkibi, fiziki-kimyəvi xassələri, təsnifatı və nomenklaturası, tətbiq sahələri haqqında yığcam məlumatlar şərh edilib.

# Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı iqtisadiyyatın şaxələndirilməsi strategiyasının ən mühüm halqalarından birini təşkil edir

*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynovun yap.org.az-a müsahibəsi*

***-Aydın müəllim yeni iqtsaqdi siyasət kursu müəyyənləşdirilən zaman bütün iqtisadi sahələri əhatə edən yol xəritələri təsdiq edilmişdi. Bu zaman diqqət mərkəzində duran əsas məsələlərdən biri iqtisadiyyatın şaxələndirilməsi prosesinin sürətləndirilməsi idi. Xüsusi ilə nəqliyyat-tranzit sahəsində bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiz?***

-İlk növbədə onu qeyd etmək istəyirəm ki, yeni iqtisadi siyasət kursu beynəlxalq yeni iqtisadi çağırışlar, qlobal maliyyə böhranı, beynəlxalq bazarlarda neftin qiymətindəki kəskin dəyişikliklər fonunda yaranan iqtisadi mənzərəyə Prezident İlham Əliyevin çevik və vaxtında reaksiyasının təzahürüdür. Məhz Dövlət Başçısının bu reaksiyası nəticəsində yuxarıda qeyd etdiyim iqtisadi situasiyanın yaratdığı təhlükə və təhdidləri Azərbaycan dövləti dəf edərək öz iqtisadi inkişaf tempini qoruya bilib. Heç şübhəsiz ki, iqtisadiyyatın şaxələndirilməsi, habelə qeyri neft sektorunun inkişafı istiqamətində görülən işlərdə nəqliyyat infrastrukturunun inkişafı, ölkənin tranzit potensialının daha da artırılması müstəsna rola malikdir. Bu istiqamətdə görülən işlərin əsas hədəfi Azərbaycanı mühüm nəqliyyat və logistika mərkəzinə çevirmək, tranzit yükdaşımaların həcmini və keyfiyyətini yüksəltmək, Azərbaycanın yerləşdiyi iqtisadi və coğrafi məkanın verdiyi üstünlüklərdən maksimum yararlanmaqdır. Bu sahədə ən böyük layihə isə heç şübhəsiz ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bununla bağlı hələ on il əvvəl Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli, 2443 nömrəli Sərəncamının icrası olaraq, Ələt qəsəbəsinin ərazisində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 2010-cu il 3 noyabr tarixində yeni liman kompleksinin təməlqoyma mərasimi keçirilmişdir. Ələt qəsəbəsində ərazisi 400 ha olan Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi mahiyyət etibarı ilə nəinki regional, hətta qlobal bir layihədir. Üç mərhələdən ibarət layihənin tamamlanması ilə 25 milyon tona qədər yük və 1 milyon TEU-ya qədər konteyner daşınması nəzərdə tutulur ki, bu da sözün əsl mənasında Ələt qəsəbəsini regionun ən böyük nəqliyyat, tranzit, logistika mərkəzlərindən birinə çevirəcək. Xüsusi qeyd etmək istəyirəm ki, Liman kompleksi üçün ayrılmış 400 ha ərazinin



100 ha sahəsində beynəlxalq nəqliyyat logistikası mərkəzinin tikintisi nəzərdə tutulub. TRASEKA çərçivəsində "Beynəlxalq nəqliyyat logistika mərkəzlərinin yaradılması" layihəsini həyata keçirən Avropa Komissarlığının nəqliyyat üzrə ekspertləri tərəfindən liman kompleksi ərazisinin Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşməsi beynəlxalq nəqliyyat logistika mərkəzi üçün əlverişli hesab edilmişdir. Bu Mərkəzin ölkə və region iqtisadiyyatında xüsusi mövqeyə malik olması və nəqliyyat qovşağında önəmli yer tutması Azərbaycanın geostrateji əhəmiyyətini bir daha təsdiqləyir.

***-Aydın müəllim avqustun 2-də Prezident İlham Əliyev Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyəti, habelə buradakı kompleksinin tikintisinin sürətlənməsi ilə bağlı daha iki sərəncam imzalayıb.***

-Cənab Prezidentin bu sərəncamları artıq onu göstəriri ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi artıq həlledici mərhələyə qədəm qoyub. Hər iki sərəncamla ayrılan vəsaitlər layihənin icrasını sürətləndirmək və onu lazımı texniki imkanlarla təmin etmək məqsədi daşıyır. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının böyük perspektivi var. Ələt istər avtomobil yolu, istərsə də dəmir yolu baxımından unikal bir qovşaq yaradır. Bura indi müasir dəniz limanı əlavə olunur. Gələcəkdə isə hava limanının inşası nəzərdə tutulur.

Açığını deyək ki, bir neçə il əvvəl biz limanın əsas perspektivini onun məhz şərq-qərb dəhlizi üzərində yerləşməsində görürdük. Çünki beynəlxalq yük daşıma trafikinə nəzər salsaq bir alternativ kmi bu marşrut yük sahiblərinə bir çox üstünlüklər verir. Çindən Avropaya alternativ marşrut kimi yüklərin daşınmasında, eyni zamanda Avropadan Orta Asiyaya daşımalarda bu ən cəlbedici marşrutdur. Nəzərə almaq lazmdır ki, Bakı-Tbilisi-Qars dəmir yolu işə düşdükdən sonra Avropdan Orta Asiyaya və Çinə yüklərin daşınması üçün çox əlverişli alternativ yol yaranacaq.

Son illər beynəlxalq səviyyədə baş verən siyasi proseslər isə göstərdi ki, şimal-cənub dəhlizi əhəmiyyətinə görə heç də şərq-qərb dəhlizindən geri qalmır. Yəni yaranmış geosiyasi situasiya yeni iqtisadi çağırışları gətirir. Azərbaycan isə bu çağırışlara da hazırlıqlıdır. Bax bu məqam Prezident İlham Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğunu növbəti dəfə nümayiş etdirir. Hesab edirəm ki, bu layihənin tamamlanması və tam qüvvəsi ilə işə düşməsi ölkəmizə çox böyük iqtisadi dividendlər qazandıracaq.

***-Aydın müəllim bəs bu layihənin əhalinin iqtisadi vəziyyətinə təsiri haqda nə deyə bilərsiz?***

-İlk növbədə onu vurğulamaq istəyirəm ki, bu layihənin işə düşməsi beynəlxalq yükdaşıma ilə bərabər daxili yükdaşıma üçün də geniş imkanlar yaradır. Digər tərəfdən yerli məhsulların xarici bazarlara çıxarılması alternativləri artır. Bundan əlavə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı çox böyük layihədir və burada on minlərlə yeni iş yerinin yaradılması nəzərdə tutulur. Ələti unikal edən xüsusiyyətlərdən biri də onun Bakının Qaradağ rayonunda yerləşməsidir. Bakının hazırda əsas iqtisadi mərkəz olduğunu, istər özəl şirkətlərin əksəriyyətinin, istərsə də insan resursunun əsasən paytaxtda cəmləşdiyini nəzərə alsaq, bu özü də böyük üstünlüklər yaradır. Qeyd edilməli digər məqam da burada xüsusi iqtisadi zonann yaradılmasıdır ki, bu da sahibkarlar üçün öz fəaliyyətlərini genişləndirmək fürsəti deməkdir. Bu isə öz növbəsində yeni əlavə iş yerlərinin açılması deməkdir.

## Qazaxıstan Azərbaycana yeni elektrovozlar tədarük etməyə başlayacaq

Bu il Qazaxıstan Azərbaycana yeni elektrovozlar tədarük etməyə başlayacaq. AZƏRTAC Qazaxıstan KİV-lərinə istinadla xəbər verir ki, iki ölkə arasında qarşılıqlı tədarük həcmləri artmaqda davam edir. Qeyd edək ki, Azərbaycan bu ilin martında Qazaxıstandan teplovozlar alıb. Azərbaycanın dəmir yollarında 10 Qazaxıstan istehsalı olan teplovoz hərəkət edir.



## Hüsnan bey Fanani: Zəngin mədəniyyətə malik Azərbaycan Xəzərin mirvarisidir

"Zəngin mədəniyyətə malik olan Azərbaycan Xəzərin mirvarisidir." Bu sözləri avqustun 3-də İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan bey Fanani Bakıda ölkəsinin təqdimatı ilə bağlı keçirilən tədbirdə deyib. Səfir bildirib ki, Azərbaycanda İndoneziyanın mədəniyyətinin və turizminin tanıdılması, təbliği üçün bir sıra tədbirlərin keçirilməsi planlaşdırılır. Onun sözlərinə görə, sentyabrın 9-11 Bakıda ikinci İndoneziya Mədəniyyət Festivalı keçiriləcək.

Açılış mərasiminin Heydər Əliyev Sarayında keçiriləcəyini söyləyən səfir festivalda iştirak etmək üçün İndoneziyadan Azərbaycana böyük nümayəndə heyətinin gələcəyini vurğulayıb. O deyib ki, heyətin tərkibində mədəniyyət və incəsənət nümayəndələri ilə yanaşı, iş adamları da olacaq. "Miss İndoneziya"nın da Azərbaycana gələcəyi gözlənilir. Festivalın növbəti günü Bakı bulvarında "Fun walk" yürüşü olacaq. Hər kəs birlikdə yürüş edib mahnı oxuya, rəqs edə biləcək".

## Azərbaycanın daxili işlər naziri Gürcüstanda səfərdədir

Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov Gürcüstan Respublikasının daxili işlər naziri Giorgi Mqebrişvilinin dəvəti ilə avqustun 2-dən 4-dək bu ölkədə rəsmi səfərdədir. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər nazirlərinin avqustun 3-də keçirilən görüşündə Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müəyyənləşdirilmiş strategiyaya uyğun uğurla inkişaf etdiyi, hər iki ölkə rəhbərliyinin qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə xüsusi önəm verdiyi qeyd olunub. Eyni zamanda, dövlətlərimizin müvafiq qurumları arasında əməkdaşlığın, ilk növbədə, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, xüsusən narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiya ilə mübarizə sahəsində birgə işbirliyinin, təcrübə və informasiya mübadiləsinin, yaradılmış normativ-hüquqi bazanın yaxın dost və strateji tərəfdaş olan ölkələrimizin mənafeyinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyi diqqətə çatdırılıb. Görüşdə regional təhlükəsizlik sahəsində, o cümlədən sərhədyanı bölgələrdə əməkdaşlığın mövcud vəziyyəti və prioritet istiqamətləri barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.



## Ermənilər əsgər ölümlərini gizlədir

Aprel döyüşlərində həlak olmuş erməni əsgər Qriqor Arutunyanın ailəsi hələ də oğlunun meyitini ala bilməyib. Bu barədə İrəvanda Qriqor Arutunyanın anası Anahit Arutunyan jurnalistlərə bildirib. Onun sözlərinə görə, onun oğlu 2016-cı ilin aprel ayında başlanan döyüşlərdən sonra itkin sayılır. Qadının sözlərinə görə, bu il iyulun 31-də onun ikinci oğlu Seryojanı da əsgər aparıblar. Halbuki, erməni qanunlarına görə, oğlu cəbhədə həlak olmuş ailənin ikinci oğlunu əsgər aparmırlar. Hərbi komissarlıq bu qanunu pozduğuna görə, erməni qadın da birinci oğlunun barəsində danışmağa başlayıb.



Ümumiyyətlə, Ermənistanda aprel döyüşlərinin qurbanlarının sayının 5 dəfə azaldıldığı ehtmal edilir. Sosial şəbəkələrdə yayılan məlumatlara görə, 2016-cı ilin aprel ayında baş vermiş döyüşlərdə 500-dən çox əsgər olub. Ermənistan isə həlak olanların sayının 100-dən aşağı olduğunu iddia edir.

Bu cür faktların açılması Ermənistanda gənclərin ordudan yayınmasına səbəb olur. Ümumiyyətlə, bu məsələ bu günlərdə erməni mətbuatında geniş işıqlandırılır. "Joxovurd" qəzetinin yazdığına görə. keçən ilin bu vaxtı ilə müqayisədə Ermənistan əhalisi rəsmi qaydada 15 min azalıb: "Əgər bu saya həmin müddət ərzində birdəfəlik gedib qayıtmayanları - 75 min 625 vətəndaşı nəzərə alsaq, vəziyyət daha faciəlidir", - deyə qəzet vurğulayır. 1992-ci illə müqayisədə isə bu ölkədə əhali sayı 654 min azalıb. Ölkədən gedənlərin arasında yoxsulluq üzündən miqrasiya edən ailələr çox olsa da, bəzi ailələr özləri getməsə də, həddi-buluğa çatmamış oğullarını Ermənistan qeydiyyatından çıxararaq Rusiyada və ya başqa ölkələrdə yaşayan qohumlarının yanına yerləşdirirlər. Məqsəd aydındır, ailələr uşaqlarının Ermənistanda əsgər getməsini istəmirlər.

Sirr deyil ki, Ermənistandan hərbi xidmətə çağırılmış gənclərin əksəriyyəti ya Azərbaysan sərhədində, ya da Qarabağda Azərbaycan - Ermənistan qoşunlarının təmas xəttində xidmət edirlər. Deputat Aram Manukyan bu ilin əvvəlində bildirib ki, əsgərlikdən qaçmaq üçün hər il Ermənistanı 2 min gənc tərk edir.

# Əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzindədir

*Sosial proqramların icrası, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin təmin edilməsi dövlətimizin başçısı tərəfindən strateji vəzifə kimi müəyyənləşdirilib*

***Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən ardıcıl və məqsədyönlü sosial-iqtisadi siyasət bütün sahələrdə öz bəhrəsini verməkdədir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin ən mühüm məqamlarından biri də, məhz əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlıdır. Sosial proqramların icrası, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin təmin edilməsi dövlətimizin başçısı tərəfindən strateji vəzifə kimi müəyyənləşdirilib.***



Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının, həmçinin, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin uğurla icrası ölkəmizin iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb edib. Qeyri-neft sektorunun davamlı inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, regionlarda infrastruktur təminatının yüksəlməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, sahibkarlıq mühitinin daha da yaxşılaşması sahəsində qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə və regionlarda aqrar sənaye potensialının artırılmasına böyük töhfələr verib. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib ki, yeni iş yerlərinin açılması uğurla davam edir: "Bu il 122 min yeni iş yeri açılmışdır ki, onlardan 101 mini daimi iş yeridir. Onu da qeyd etməliyəm ki, 24 min iş yeri bağlandı. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri var. Bu, əslində, daimi prosesdir. Ancaq biz rəqəmlərə baxanda, - 122 min iş yeri açılıb, 24 min iş yeri isə bağlanıb, - əlbəttə, görürük ki, yenə də iş yerlərinin açılması prosesi uğurla gedir. Ona görə də, bizdə işsizlik aşağı səviyyədədir".

Dövlət proqramlarının uğurlu icrası nəticəsində, ölkəmizin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafına dövlət dəstəyi güclənib, yerli istehsal və emal müəssisələrinin fəaliyyəti genişləndirilib, iqtisadi və sosial-mədəni infrstruktur obyektləri yenidən qurulub, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, nəticə etibarilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində böyük nailiyyətlər əldə edilib. Dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən, elektrik enerjisi, qaz və su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi istiqamətində mühüm tədbirlər həyata keçirilib, bu sahəyə irihəcmli dövlət investisiyaları yatırılıb. Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması, onların məskunlaşdığı ərazilərdə yeni iş yerlərinin, məktəb, səhiyyə və digər sosialyönümlü obyektlərin yaradılması istiqamətində ciddi işlər görülüb. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı çərçivəsində tədbirlərin həyata keçirilməsi ölkə əhalisinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayıb.

***"Səs" Analitik Qrupu***

# "Zaman və məkan" adlı müsabiqə keçiriləcək




Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "Zaman və məkan" adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

# Təhsil müəssisəsinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb



Peşə məktəbinin vəzifəli şəxsləri tərəfindən məktəbin pedaqoji və işçi heyətinə əsassız olaraq artıq əməkhaqqı ödənilməsi barədə Maliyyə Nazirliyindən daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müəyyən edilib ki, Xızı peşə məktəbinin vəzifəli şəxsləri tərəfindən öz qulluq səlahiyyətlərindən sui-istifadə edərək məktəbin tədris bazası olmamasına, istehsalat təcrübəsinin faktiki keçirilməməsinə baxmayaraq gözətçi, sürücü, paltarsaxlayan və ocaqçı kimi rəsmiləşdirilən artıq ştat vahidlərinə, əlavə tarifləşdirilmiş dərs saatları verilən, əvəzçiliklə işləyən, habelə şagirdlərin davamiyyəti olmadığı halda qrup jurnallarında əsassız olaraq rəsmiləşdirilmiş pedaqoji işçilərə 47 min 971 manat məbləğində artıq əməkhaqqı ödənilib.

Həmin fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İyulda ANAMA tərəfindən 1 milyon 659 min kvadratmetr çox ərazi yoxlanılıb

İyulda Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən 1 milyon 659 min 190 kvadratmetr (165,91 hektar) ərazi yoxlanılıb, mina və partlamamış hərbi sursatdan təmizlənib. ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 517 mina və partlamamış hərbi sursat, 1 tank əleyhinə və 1 piyada əleyhinə mina (cəmi 519 ədəd) aşkarlanaraq zərərsizləşdirilib. Əməliyyatlarda 516 nəfər əməliyyat heyəti və 135 nəfərdən ibarət inzibati heyət iştirak edib. Həmçinin 6 mexaniki minatəmizləmə maşını və 34 minaaxtaran it əməliyyatlara cəlb olunub.

İndiyədək cəmi 405 milyon 672 min 483 kvadratmetr (40 min 567,24 hektar) ərazi təmizlənib, 762 min 926 mina və partlamamış hərbi sursat zərərsizləşdirilib.

İyul ayı ərzində təcili və təxirəsalınmaz əməliyyatlar üzrə 102 Xidməti Zəng Mərkəzindən 4, Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 4 müraciət və 102 Xidməti Zəng Mərkəzi ilə FHN-nin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən birgə iki müraciət daxil olub. Müraciətlərin əsasında 8 min 895 kvadratmetr ərazi təmizlənib, 61 ədəd partlamamış hərbi sursat, 1 ədəd tank əleyhinə və 1 ədəd piyada əleyhinə mina (cəmi 63 ədəd) aşkar edilərək yerli əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə daşınaraq zərərsizləşdirilib.

Ay ərzində ANAMA tərəfindən təmizləmə əməliyyatları Ağcabədi, Ağdam, Füzuli, Xocavənd, Ağstafa, Cəbrayıl, Bərdə, Gəncə, Tərtər, Qazax, Şəmkir və Lənkəran rayonlarında, eləcə də Bakıda aparılıb. Ötən ay mina və partlamamış hərbi sursat hadisəsi qeydə alınmayıb.

## Azərbaycan üzrə iyul ayında gündəlik neft hasilatı ilə bağlı məlumatlar açıqlanıb

Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv olan və kartelə daxil olmayan ölkələrin neft hasilatının azaldılması ilə bağlı Vyana razılaşmasına uyğun olaraq Azərbaycan cari ilin iyul ayı ərzində gündəlik neft hasilatı ilə bağlı məlumatları Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, həmin məlumatlara əsasən, cari ilin iyul ayı ərzində respublika üzrə gündəlik neft hasilatı 796,7 min barrel olub. Bunun 745,1 min barrelini xam neft, 51,6 min barrelini kondensat təşkil edib. Gündəlik 611,3 min barrel xam neft, 51,6 min barrel kondensat, 15,7 min barrel isə neft məhsulları ixrac edilib. Neft hasilatının azaldılması üzrə sazişə müvafiq olaraq Azərbaycan hasilatı sutkada 35 min barrel azaltmaqla bağlı götürdüyü öhdəliyi tam yerinə yetirib. Qeyd edək ki, Respublika üzrə gündəlik neft hasilatı yanvar ayı ərzində 793,9 min barrel, fevralda 776,4 min barrel, martda 733,3 min barrel, apreldə 781,1 min barrel, mayda 785,3 min barrel, iyunda isə 793,7 min barrel olub.

# Son altı ayda Türkiyəyə 300 mindən çox azərbaycanlı turist səfər edib




Ötən illə müqayisədə bu il Azərbaycandan Türkiyəyə gedən turistlərin sayında artım müşahidə edilib. Belə ki, cari ilin yanvar-iyul ayları ərzində 306 min 644 nəfər azərbaycanlı turist qardaş ölkəyə səfər edib. AZƏRTAC xəbər verir i, bu barədə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, Türkiyəyə üz tutan xaricilər arasında azərbaycanlılar üstünlük təşkil edir. Təkcə bu ilin iyun ayında ölkəmizdən Türkiyəyə 63 min 223 nəfər turist səyahət edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz çoxdur.

Bundan başqa, Rusiya, Almaniya, Gürcüstan, İran və Bolqarıstan vətəndaşları da Türkiyəyə getməyə üstünlük verirlər.

***Avqustun 1-də Ermənistanda baş vermiş bir cinayət hadisəsi, bir daha sübut etdi ki, bu ölkədə mövcud olan kriminogen vəziyyət kritik vəziyyətə çatmaqla yanaşı, etnik diskriminasiya halları da çərçivədən çıxıb. Belə ki, Ermənistanda etnik qrup olaraq yaşayan yezidilərin yas mərasimində 4 nəfərin ölümü, 7 nəfərin isə yaralanması ilə nəticələnən qanlı hadisə də, bu faktı kifayət qədər sübuta yetirir. Lakin bununla yanaşı, bənzər hadisələrin davamlı olaraq yaşanması ölkə rəhbərliyinin kriminallarla mübarizəsində aciz qaldığının aşkar göstəricisidir. Əbəs yerə deyil ki, artıq bir sıra erməni KİV-ləri bununla bağlı şərhlər verir, hətta kriminalların Ermənistanı süquta doğru apardığını qeyd edirlər. Belə ki, "1in.am" saytının analitik bölməsində qeyd olunur ki, son 10 gündə bu, üçüncü bənzər hadisədir ki, Ermənistanda yaşanır.***



# Ermənistanın çöküşü - yezidilərə qarşı diskriminasiya və qanlı cinayətlər



## "Hakimiyyət, hətta məişət cinayətlərinin qarşısını ala bilməkdə çətinlik çəkən cinayətkarlar dəstəsinə çevrilib"

"Bu dəfə də baş verənləri ya məişət olayı kimi təqdim edəcəklər, ya da dövlət özlərini təmizə çıxarmaqdan ötrü, məhz yezidilər arasında baş verən qanlı hadisəni icmalararası problem kimi motivizə edəcək"-deyə yazan erməni saytında, o da bildirilir ki, Ermənistan balaca ölkədir və belə ölkədə hər şeyi nəzarətdə saxlamaq, əslində, çətin məsələ deyil, ən azından, hakimiyyət bu nəzarəti təmin edə bilərdi. "Əgər hakimiyyət bu nəzarəti itiribsə, bunu etməyi bacarmırsa, kriminogen vəziyyətdən çıxış yolu tapa bilmirsə, onda bir neçə konkret nəticə çıxarmalıdır"-erməni saytının analitiki Sarqis Artsruni yazır. SİTAT: "Ola bilsin ki, hakimiyyət sonuncu seçkiləri o qədər kriminallaşdırıb ki, indi də formal səlahiyyətlərini icra edə bilmir, qısası, hakimiyyətin özü, hətta məişət cinayətlərinin qarşısını ala bilməkdə çətinlik çəkən cinayətkarlar dəstəsinə çevrilib".

## "Biz, dövlətin məhv olması həddinə yaxınlaşmışıq, o biri tərəfdə artıq total kriminal özbaşınalıqlar hökm sürür"

Analitik bölmədə digər bir nüansa da toxunularaq yazılıb ki, 2018-ci ilin astanasında hakimiyyətdaxili ziddiyyətlər, fikir ayrılıqları o həddə çatıb ki, artıq bu sistem özünüidarə gücünü itirib və situasiyaya nəzarət edə bilmir. Hətta istisna olunmur ki, məhz bu sistem daxilində süni şəkildə böhranlar hazırlanır ki, sonradan hakimiyyət daxilində növbəti nəhəng yerdəyişmələr etməyə şərait yaransın. SİTAT: "Bu ehtimalların və versiyaların hansısa reallığa yaxın olursa-olsun, fakt budur ki, biz dövlətin məhv olması həddinə yaxınlaşmışıq, o biri tərəfdə artıq total kriminal özbaşınalıqlar hökm sürür".

Beləliklə, baş verən hadisə, bir daha sübut edir ki, Ermənistanda xalqların bir vəhdətdə birləşməsi anlamı mövcud deyil və göründüyü kimi, istər siyasi, istərsə də digər baxımlardan, bu ölkədə etnik xalqlara qarşı bu və ya digər şəkildə qanlı divanlar tutulur, onun adını isə sonradan "məişət zəminində baş verən cinayət" kimi təqdim edirlər. Halbuki erməni KİV-ləri də buna eyham vururlar, iddia irəli sürülür ki, hakimiyyət bənzər cinayətləri qəsdən yaradır ki, sonradan siyasi-kriminal maraqlarını daha da möhkəmləndirsin.

## Ermənistan kilsələrində yezidilərlə nikaha daxil olmaq qəti şəkildə qadağan olunub

Başqa tərəfdən, onu da qeyd etmək yerinə düşərdi ki, ümumiyyətlə, bənzər hadisələr nəticəsində, Ermənistan monoetnik ölkəyə çevrilib. Yəni ümumiyyətlə, ermənilər monoetnik çərçivədə tərbiyə alırlar. Ona görə də, ermənilər üçün müxtəlif xalqların bir arada yaşayaraq, Vətən sevgisini bölüşmələri daim anlaşılmaz olaraq qalıb. Mövzudan kənara çıxmayaraq, adi bir misal gətirək. Məsələn, Ermənistan kilsələrində yezidilərlə nikaha daxil olmaq qəti şəkildə qadağan olunub. Bununla yanaşı, yezidilərə onlar üçün ənənəvi hesab edilən maldarlıqla, kənd təsərrüfatı və digər təsərrüfat növləri ilə məşğul olmaq üçün süni maneçilik törədilir, parlamentdəki deputatlar isə, aşkar şəkildə bu xalqı aşağılayır və təhqir edirlər. Onların övladları hərbi xidmətə göndərilərkən, birbaşa cəbhə xəttinə yönəldilirlər. Bütün bunlar isə, yeganə etnik xalq olan bu millətə qarşı diskriminasiya hallarının artmasını isbat edir. Haqqında bəhs edilən növbəti cinayət olayı da, məhz bu sıradandır.

*"1in.am". "Bu dəfə də baş verənləri məişət olayı kimi təqdim edəcəklər, ya da dövlət özünü təmizə çıxarmaqdan ötrü, məhz yezidilər arasında baş verən qanlı hadisəni icmalararası problem kimi motivizə edəcək"*



***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət liderlərini bazara çıxarıb satmaq istəsək...

*Surət Hüseynov iddia edir ki, onlara 3 qəpik də verən olmaz*

***Bu bir faktdır ki, müxalifət düşərgəsində hər zaman bir-birindən anormal, diqqəti cəlb edən qalmaqallı hadisələr baş verib. Dünən bir-birinə can deyib, müxtəlif formada blok və qurumlar yaradanlar az sonra səngərlər qazıb, bir-birini topa-tüfəngə tutublar. Bununla bağlı çoxsaylı faktlar və misallar çəkmək olar. Sadəcə, bu günlər mətbuatda geniş müzakirə mövzusu olan Surət Hüseynovla müxalifət liderləri arasındakı qarşıdurmaları qeyd etməklə, hər kəs ümumi mənzərəni təsəvvür etmiş olar.***



Məlumdur ki, 1992-ci ildə hakimiyyəti qəsb edən AXC-Müsavat cütlüyü milli və dövlətçilik maraqlarını arxa plana ataraq, yalnız öz şəxsi mənafelərini həyata keçirməyə çalışırdı. Bu, azmış kimi, öz qohum-əqrəbalarını, dost-tanışlarını da yaddan çıxarmırdılar. Yaddan çıxmayan dostlarından biri də Yevlax Yun Zavodunun keçmiş direktoru Surət Hüseynov idi. Heç bir hərbi təhsili, ordu ilə bağlı primitiv məlumatı belə olmayan S.Huseynov gözlənilmədən korpus komandiri təyin olundu. Bununla yanaşı, S.Hüseynov milli qəhrəman adı, eləcə də, Qarabağ üzrə prezidentin səlahiyyətli nümayəndəsi mükafatı ilə təltif edildi.

## Planları başlarında çatladı

Qarşısına qoyduğu məqsədə nail olan Surət Hüseynov bəxtinə-taleyinə bir növ şıllaq çəkməyə başladı. Rusiyanın keçmiş müdafiə naziri Pavel Qraçovun hərbi - siyasi dəstəyinə arxalanan S.Hüseynov onu vəzifə pillələrilə irəli çəkən AXC-Müsavat hakimiyyətini devirib özü prezident olmaq iddiasına düşdü. Bu planını həyata keçirmək üçün müxtəlif siyasi oyunlar da qurdu. Ancaq fakt budur ki, bu məkrli planların reallaşdırılması yolunda onlarla Azərbaycan gənci həyatlarını itirdilər. AXC-Müsavat hakimiyyəti, kor-koranə qiyamçıların toplaşdığı mərkəz hesab etdiyi "709" saylı hərbi hissəyə hücum etməsi ilə, vətəndaş qarşıdurmasının ilkin işartıları yarandı. Vətəndaş müharibəsi baş verməsə də, ölkənin müstəqilliyinə və suverenliyinə ciddi zərbələr dəydi. Bu barədə kifayət qədər yazıldığından, mən də yazıb təkrarçılığa yol vermək istəmirəm. Ancaq onu qeyd etmək lazımdr ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə, birlik və bərabərlik nümayiş etdirməklə, AXC-Müsavat hakimiyyətini və onların tör-töküntülərini hakimiyyətdən, həm də siyasi səhnədən silib-atmağı bacardı.

## Surət Hüseynov yenə də Pənah Hüseynə ağıl öyrədir

Artıq o, ağır və böhranlı günlər arxada qalıb. Amma maraqlı məqam ondan ibarətdir ki, bu gün də keçmiş tərəfdaşlar bir-birinə qarşı olan düşmənçiliklərini unutmayıblar. Bir qədər əvvəl AXC-Müsavat hakimiyyətinin müdafiə naziri olmuş Rəhim Qazıyev Elçibəyi və onun komandasını ittiham edib, onları səriştəsiz siyasətləri nəticəsində, Kəlbəcər və Laçının qısa müddətdə ermənilərə təhvil verilməsində günahlandırmışdır. İndi isə, uzun müddət gözdən-könüldən uzaq olan R.Qazıyevin keçmiş dostu S.Hüseynov meydana çıxaraq, AXC-Müsavat hakimiyyətinin təmsilçiləri olmuş indiki müxalifəti ən kəskin söz və ifadələrlə tənqid və təhqir edir. S.Hüseynov iddia edir ki, indiki müxalifəti bazara çıxarsan, onlara 3 qəpik də verən olmaz: "Mənim Rusiya ilə heç bir əlaqəm yoxdur. Vaxtilə Rusiyadan muzdlu döyüşçülər gətirib Qarabağda döyüşdürmüşəm, torpaqları azad etmişəm. Buna görə də onlara şəxsi cibimdən pul vermişəm. Vaxtilə Rusiyaya məxsus hərbi hissələrdən məndən savayı, heç kim silah-sursat götürməyib. Əgər götürüblərsə, o zaman iqtidarda olan AXC-Müsavatdan bir nəfər durub adını desin! Ancaq mən bunu etmişəm, üstəlik, Qarabağı azad etmək üçün rusları da girov götürmüşəm. Mən bunu məhkəməmdə də demişəm. Ancaq həmin o adamlar mənə qara yaxmaq üçün deyirlər ki, guya Surət Hüseynov Rusiyanın adamıdır, hakimiyyət çevrilişinə hazırlaşır və sairə. Ağıllarına gələni danışırlar. Bunları bazara çıxartsan, heç 3 qəpiyə də satmaq olmaz".

S.Hüseynov AXC-Müsavat hakimiyyətinin nümayəndələrinə hədələyici mesaj ünvanlamağı da unutmayıb: "Məni təhqir edən həmin alçaq adamlara sözüm odur ki, ay biqeyrətlər, mən müharibə edib, sənin namusunu qoruyanda, 220 yaşayış məntəqəsini azad edəndə, sən harada idin? Bunu dövlət etməmişdi, mən öz pulum və hörmətimlə etmişdim. AXC-Müsavat, bəs siz nə etdiniz? Mənim azad etdiyim torpaqları şərəfsiz ermənilərə satdınız! Sonra da mənə "vətən xaini" damğası vurmaq istədiniz".

Gözlənildiyi kimi, S.Hüseynovun ittihamlarına cavab özünü çox da gözlətməyib. AXC-Müsavat hakimiyyətində baş nazir olmuş, AXP sədri Pənah Hüseyn S.Hüseynovu danışdıran Rusiyanın müəyyən dairələri olduğunu bildirib: "Utanmadan deyir və onun bəzi muzdlu məddahları da təkrar edirlər ki, o, Qarabağın 220 yaşayış məntəqəsini azad edib. Belə də həyasızlıq olarmı? 1992-ci ilin yay-payız hərbi kampaniyası dövründə Azərbaycan Ordusunun, əsgər və zabitinin, könüllünün, yüzlərlə və minlərlə şəhid qanı bahasına azad etdiyi nailiyyəti necə özününküləşdirmək olar? Məsələnin siyasi tərəfinə gəldikdə isə, Surət Hüseynov, AXC hakimiyyətə gələnə qədər və AXC hakimiyyətdən getdikdən sonra, azad etdiyi bir metr vətən torpağını göstərsin, dediklərini qəbul edək".

P.Hüseyn onu da bildirib ki, S.Hüseynov 1993-cü ilin yayında başladığı qiyam nəticəsində ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinə yardımçı oldu: "Məhz Surət Hüseynovun rəhbərliyi ilə başlanan hərbi qiyam nəticəsində ölkədə yaranan siyasi xaos 1993-cü ilin yazında Kəlbəcərin və digər işğal olunmuş ərazilərimizin azad olunmasını nəzərdə tutan və ABŞ, Rusiya, Türkiyənin hazırladığı, ATƏM-in (indi ATƏT-red.) təsdiq etdiyi, Azərbaycan və Ermənistan Respublikasının qəbul etdiyi, hətta qondarma "DQR" "parlamentinin" 14 iyun 1993- cü il tarixində təsdiqləməyə məcbur edildiyi və müharibənin qurtarması demək olan siyasi planın gerçəkləşməsinin qarşısını aldı və düşmənin daha beş rayonumuzu işğal etməsinə şərait yaratdı. Bu, əsl milli xəyanət idi".

Bir sözlə, görünən odur ki, keçmiş ortaqlar bir-birinə qarşı son və həlledici savaşa başlayıblar. Qarşılıqlı ittihamların yeni başladığını nəzərə alsaq, bu xəmirin hələ çox su aparacağını demək olar.

***İ.ƏLİYEV***

# Mübariz Əhmədoğlu: "Fransa ATƏT MQ həmsədrliyində ballast dövlətə çevrilir"

***"Hal-hazırda Fransa Dağlıq Qarabağ tənzimlənməsində heç bir təşəbbüs irəli sürə bilmir. Eks-prezident Fransua Olandın Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşü ilə bağlı irəli sürdüyü təşəbbüs Ermənistan tərəfindən rədd olundu". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Onun sözlərinə görə, Fransanın Dağlıq Qarabağ tənzimlənməsində ballasta çevrilməsində əsas rol bir qrup Fransa parlamentariləri və siyasətçilərinə məxsusdur: "Bir qrup Fransa parlamentarisi və siyasətçisi "Artsax" (Dağlıq Qarabağ)-Fransa Dostluq Qrupu yaratmaqla Dağlıq Qarabağın müstəqil dövlət kimi görünməsi istiqamətində fəaliyyət göstərdilər. Fransada erməni icmasının rəhbərlərindən biri Murad Papazyan F.Olandın Dağlıq Qarabağ tənzimlənməsi ilə bağlı fikirlərini açıqladı; Ətraf rayonlar Azərbaycana qaytarılmalı imiş; Papazyanın aranjemanında bu 7 yox 5 rayondur.

F.Olanda görə 1988-ci ilədək Dağlıq Qarabağda yaşamış azərbaycanlıların Dağlıq Qarabağa qayıdaraq Dağlıq Qarabağ erməniləri ilə birlikdə Dağlıq Qarabağın statusu barədə referendumda iştirak etməli imiş; M.Papazyanın aranjemanında Dağlıq Qarabağ azərbaycanlıları cəmi 25 faizdir və referendum müstəqillik referendumudur. Fransalı erməni bunu etiraf etdiyi halda erməninin ələ aldığı Fransa parlamentinin deputatı F.Roşbluan isə yalnız Dağlıq Qarabağ ermənilərini və onların müstəqil dövlətçiliyini görürdü. Dəfələrlə Fransa cəmiyyətinin aktiv hissəsinin nümayəndələrini qoşunların təmas xəttinin ön hissəsinə gətirmişdi. Məhz bəzi Fransa siyasətçilərinin hesabına Fransa ATƏT MQ-də ballast dövlətdir. Belə fəaliyyət yalnız Ermənistana sərfəlidir: "Fransa tərəfi belə dedi", "Fransa ilə də məsləhətləşək" adı ilə S.Sarkisyan geniş imitasiya resursları əldə edir. Roşbluan yaxın günlərdə bir qrup parlamentarilər ilə Dağlıq Qarabağın azərbaycanlı icmasını Fransaya dəvət edəcəksə, bu halda müəyyən qədər gözləmək olar".

# Bu gün Bakıda 37, bəzi bölgələrdə 42 dərəcə isti olacaq



***Azərbaycanda avqustun 4-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-26°, gündüz 33-38° isti, Bakıda gecə 24-26°, gündüz 35-37° isti olacağı gözlənilir.***

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti, dağlarda gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında havanın yağmursuz keçəcəyi ehtimalı var. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 34-39° isti, dağlarda gecə 13-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-23°, gündüz 34-39° isti, dağlarda gecə 15-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

TƏRS BAXIŞ

**Bu günlərdə bəlli olub ki, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlının təşəbbüsü ilə AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının, AXP sədri Pənah Hüseynin, KXCP sədri Mirmahmud Mirəlioğlunun, "AAP" sədri Kamil Seyidovun, "BAP" sədri Elşad Musayevin, AzDP sədri Sülhəddin Əkbərin, ADP sədri Sərdar Cəlaloğlunun və "MSDM"-in sədri, sabiq Müsavat başqanı İsa Qəmbərin iştirakı ilə görüşləri keçirilib. Lakin burada söhbət müxalifətin bir yerə toplanaraq, hansısa mövzu ətrafında müzakirə aparmaları deyil, söhbət həmin görüşün gizli keçirilməsi ilə bağlı təşkilatçı S.Rüstəmxanlının partiya sədrlərindən etdiyi tələbidir. Hətta görüşdən fotonun paylaşılması da qadağan edilib.**

# Sabir Rüstəmxanlı nəyi gizlətməyə çalışıb?..

*Yaxud VHP sədrinin bayrağı hara və hansı məqsədlərə tərəf əsir?*

### Sabir Rüstəmxanlı Əli Kərimlidən, Arif Hacılıdan və İsa Qəmbərdən başqa gizli görüşdə iştirak etmiş digər müxalifət partiya sədrlərindən bir günlük istifadə edib

Söz yox ki, müxalifətin bir araya gətirdiyi həmin görüşün gizli saxlanılması israrlığı istər-istəməz insanlarda bəzi şübhələri doğurur. Məsələn, orada digərlərini çıxdaş etməklə, AXCP sədri Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, "MSDM" sədri İ.Qəmbərin iştiraklarını nəzərə alarsaq, onda məsələnin hansı tərəfə xidmətçilik göstərmələrini bəri başdan ehtimal etmək mümkün olar. Bəlkə də belə hesab etmək mümkündür ki, bu üç nəfərdən başqa oraya toplaşanlar, sadəcə, kamufilə - yəni gözdən pərdə asmaq xarakteri daşıyanlardırlar. Sadəcə, S.Rüstəmxanlı onlardan öz məqsədləri



üçün bir günlük istifadə edib. Daha rahat anlaşılsın deyə AXP sədri Pənah Hüseynin, KXCP sədri Mirmahmud Mirəlioğlunun, AAP sədri Kamil Seyidovun, BAP sədri Elşad Musayevin, "AzDP" sədri Sülhəddin Əkbərin, ADP sədri Sərdar Cəlaloğlunun dəvətləri AXCP və Müsavat başqanlarının, eləcə də, MSDM sədri İ.Qəmbərin adlarının ictimai rəydə daha çox gözə çarpmaması üçün baş tutub. Çünki bildiyimiz qədər, bu üç nəfərdən başqa, digər müxalifət partiyalarının sədrləri siyasi ictimaiyyətdə elə də təsiri olmayanlar cərgəsində dayanırlar, lakin həmin üçü elektorat, siyasi imic baxımından, xüsusi mövqeləri ilə seçilməsələr də, az-çox tanınırlar.

### DAK nə zamandan Azərbaycanın daxili siyasi mühitində rol almağa başlayıb ki, bu görüşdə ölkədəki ictimai-siyasi mühit aparıcı mövzulardan olsun?

Bu baxımdan, sözügedən görüş barədə müəyyən açıqlamalar verən ADP sədri S.Cəlaloğlunun fikirləri, əslində, bəzi məqamları özü-özlüyündə açıqlamış olur. Məsələn, onun dediyinə görə, VHP-nin qərargahında keçirilən görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, müxalifət partiyalarının yenidən birlik formasında fəaliyyət göstərmələri müzakirə olunub. İyul ayının əvvəlində baş tutan görüş Dünya Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə keçirilsə də, həmin görüşün ölkədaxili siyasi vəziyyətə istiqamətləndirilməsi sualları yaradır. İlk növbədə, belə bir sual yaranır ki, DAK nə zamandan Azərbaycanın daxili siyasi mühitində rol almağa başlayıb ki, bu görüşdə ölkədəki ictimai-siyasi mühit aparıcı mövzulardan olsun?

Başqa tərəfdən, S.Cəlaloğlu görüşlə bağlı açıqlamasında yalnız bir dəfə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələrin aparıldığını deyir, ancaq sonrakı məqamda yalnız müxalifətin birliyindən bəhs edir. Məgər DAK ölkə müxalifətini bir araya gətirib, daxili ictimai-siyasi vəziyyətə müdaxilə etmək hüququna malikdirmi? Əlbəttə ki, yox.

### Sabir Rüstəmxanlının gizlilik israrları nəyə əsaslanır?

Sadəcə, VHP sədrinin görüşün gizli keçirilməsi, hətta görüşdən olan fotoların mətbuata sızdırılmaması üçün israrçılıq etməsi, onun başqa planlarından xəbər verir. Misal üçün, bu görüşdə AXCP sədrinin və Müsavatın hazırkı və sabiq başqanlarının iştirakı, artıq belə deməyə zəmin yaradır ki, S.Rüstəmxanlı qarşıdan gələn 2018-ci il prezident seçkilərində "siyasi sıçrayış" əldə etmək məqsədilə, ətrafında, məhz bu partiya təmsilçilərini görmək istəyir. Bunun üçün isə, onun özbaşına deyil, hansısa xarici qurumlarla razılaşmalar apardıqdan sonra gizli görüşü keçirdiyini hesab etmək olar. Sadəcə, onlara kiçik - adı olub, fəaliyyəti nəzərə çarpmayan müxalifət partiyalarının da "dobro"su lazımdır. Təki partiyaların adları çox olsun, daha onların siyasi çəkilərinin olub-olmaması elə də rol oynamır. Ancaq ADP sədrinin dediyi fikirləri, daha dəqiq desək, ümumi razılaşmanın əldə olunmaması VHP sədrinin öz istəyini reallaşdıra bilmədiyini göstərir.

### Atalar demiş, örtülü bazar, dostluğu pozar...

Belə ki, "görüşdə müxalifət partiyalarının birlik formatında fəaliyyət göstərməsi ilə bağlı razılıq əldə olunmayıb"-deyən S.Cəlaloğluya görə, görüşdə belə bir razılığa gəlindi ki, müxalifət partiyaları, hələlik, funksional əməkdaşlıq etsinlər: "Amma hələlik, müxalifət partiyaları arasında daimi birlik yaradılması barədə razılıq əldə olunmayıb. Hazırda ölkədə müxalifətçilik böhran içərisindədir. Belə bir vəziyyətdə müxalifətin birlik formatında fəaliyyəti mümkün deyil".

Sonda isə fikrimizi S.Rüstəmxanlının üzərində cəmləyərək, belə qənaətə gələ bilərik ki, indi də Ə.Kərimli, A.Hacılı və İ.Qəmbər vasitəsilə gündəmə gəlib, özünü "müxalifətin ağsaqqalı" kimi göstərməyə cəhd edən VHP sədri, yaxşı olardı ki, uzun illər ərzində, öz bayrağının hansı tərəfə yellənməsini köklü surətdə müəyyənləşdirsin. Yoxsa ki, bu gün onun bayrağının istiqamətsiz yellənməsi bəlli olmayınca, özünün də siyasi iddiaları heç vaxt reallaşmamış qalacaq. Hətta bundan sonra yenə gizli görüşlər keçirib, "ağsaqqallıq" etsə belə. Atalar demiş, örtülü bazar, dostluğu pozar...

**Rövşən RƏSULOV**

---

**Məlum olduğu kimi, AXCP sərdi Əli Kərimli ilə eyni maraqları bölüşən "Sülh və Demokratiya İnistitutu"nun rəhbəri Leyla və Arif Yunusların Praqada mənzilləri, İstanbulda obyektləri olduğu üzə çıxıb. Bu fakt onların xarici qüvvələrdən külli miqdarda maliyyə vəsaitləri aldıqlarını sübuta yetirir.**

# Leyla Yunus həbs olunaraq Azərbaycana gətiriləcək

<u>"Yurddaş" Partiyasının sədri Mais Səfərli:</u>

- Adıçəkilən şəxslərin əldə etdiyi maliyyə vəsaitinin mənbəyi araşdırılmalıdır. Çünki bunların hər ikisi siyasətlə məşğul olan şəxslərdir. Yəni siyasətlə məşğul olan şəxslərin fəaliyyəti çox şəffaf olmalıdır. O cümlədən, onların sərvətləri haqqında məlumatda ictimaiyyətə bildirilməlidir. Özləri əldə etdikləri maliyyə vəsaitlərinin mənbəyi barədə məlumat verməlidirlər. Azərbaycan Konstitusiya və qanunlarına görə, ölkəmizdə fəaliyyət göstərən siyasi təşkilatlar xaricdə olan qüvvələr tərəfindən hər hansı bir şəkildə maliyyələşdirilə bilməz. Çünki bu, Azərbaycan qanunlarına ziddir və



bu cinayət məsuliyyəti yaradır. Ümumiyyətlə, siyasiləşmiş QHT-yə rəhbərlik edən bir adamın belə sərvətlərə sahib olması çox ciddi suallar doğurur. Əlbəttə ki, həmin şəxslərin özləri bu barədə açıqlama verməlidirlər. Çünki bu illər ərzində, hər kəs çox gözəl bilir ki, həmin şəxslər heç bir yerdə işləməyiblər. Əgər həmin şəxslər partiyadan məvacib alırlarsa, demək olar ki, o məvaciblə heç ev almaq da mümkün deyil. Belə olan halda da, suallar yaranır ki, bunlar bu qədər maliyyə mənbəyini haradan və kim tərəfindən əldə ediblər.

<u>Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:</u>

- Zaman-zaman Əli Kərimlinin xaricdə mülkləri, biznes imkanları barədə mətbuatda müxtəlif məlumatlar paylaşılıb və paylaşılmaqdadır və bu gün də cəmiyyətin haqlı olaraq səsləndirdiyi "Ə.Kərimli də bu qədər imkanlar haradandır? Bu maliyyənin mənbəyi haradandır?" kimi suallara onun özü tərəfindən heç bir cavab yoxdur. Amma Ə.Kərimlinin yaxın çevrəsində olmuş və maliyyə məsələlərində maraqları toqquşduğundan, ondan aralanmış çoxlu sayda insanlar olublar ki, sonradan liderlərini xaricdən maliyyələşməkdə ittiham etmişlər. Hər zaman biz bu kimi halların şahidi olmuşuq. Eyni zamanda, Ə.Kərimli xislətində olan Leyla Yunusla da bağlı analoji faktlar yeni deyil. Bu insanların biznesləri varsa, bu qədər qazancları əldə etməklə bağlı vergi bəyannamələri haradadır? Biznesləri yoxdursa, bu qədər var-dövləti haradan əldə ediblər? Ə.Kərimli dəyəri milyonlarla ölçülən Londondakı mülkləri hansı vəsaitlə əldə etmişdir? Ə.Kərimli və Leyla Yunus anti-milli fəaliyyətlərinin müqabilində aldıqları böyük maliyyə ilə London, Praqa, İstanbul və digər yerlərdə mülklərə yiyələniblər. Bu insanların maddi imkanlarının əsasında onların kriminal və qaranlıq fəaliyyətləri dayanır. Vaxtilə ətraflarındakı müxtəlif QHT-lər vasitəsilə Avropadan milyonlarla vəsait əldə etmiş Ə.Kərimli və Leyla Yunuslar, məhz bu pulları xaricdə mülklər almağa yönəltmişlər. İndi bu prosesi, Ə.Kərimli Gürcüstan üzərindən həyata keçirməklə, davam etdirməkdədir. Hesab edirəm ki, hüquq-mühafizə orqanlarımız bu faktları dərindən araşdırmalı və milli maraqlarımıza zidd fəaliyyətlərinə görə yönəlmiş maliyyənin mənbəyini ifşa etməlidirlər.

<u>Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:</u>

- Bu insanlar daim xalqın adından danışaraq, öz mənfəətlərini güdüblər. Bunlar müxalifətçiliyi biznes-quruma çevirərək, siyasi alvernən məşğuldurlar. Bu insanlar heç bir yerdə işləmir, vergi ödəyicisi deyil, amma xaricdə mülk sahibidirlər. Buradan aydın olur ki, hansısa xarici qüvvələrin alətinə çevrilərək onlara xidmət göstərir və özlərinə var-dövlət qazanırlar. Hesab edirəm ki, bu cür əməllərlə məşğul olan insanlara qarşı xalq da mübarizə aparmalı, onların cəfəng sözlərinə uymamalı və bəd əməllərini ifşa etməlidirlər. Onsuz da, bu insanların cəmiyyətdə nüfuzu, demək olar ki tamamilə yoxdur və bunu özləri də bilir, amma tutduqları bu yoldan qazanc əldə edərək yaşadıqlarına görə nüfuz və hörmət anlayışını artıq arxa plana keçmişlər. Bir amalları var: o da qazanc əldə etmək, hətta bu öz vətənlərini və dövlətlərini satmaq bahasına başa gəlsə də.

**GÜLYANƏ**

# Əhməd bəy Ağayevin Azərbaycan dövlətçilik və milli intibah tarixində rolu

***Ə.Ağaoğlu Azərbaycanın ictimai-siyasi, ədəbi-bədii, maarifçilik, dövlətçilik və milli intibah tarixində mühüm rol oynamış ensiklopedik bilik sahibi olan siyasətçi, ədəbi tənqidçi, maarifçi mütəfəkkir, filosof və sosioloqdur.***

Ə.Ağaoğlunun geniş əhatəli yaradıcılığının Azərbaycan tədqiqatçıları tərəfindən hərtərəfli araşdırılması, bunu bir daha sübut edir. Bunun üçün onun tədqiqatlarına müraciət edək.

Şahnəzər Hüseynov "Əhməd bəy Ağaoğlunun dünyagörüşü" əsərinə yazdığı ön sözdə yazır: "Əhməd bəy Ağaoğlu XIX əsrin sonu və XX əsrin birinci yarısı hüdudlarında formalaşmış Azərbaycan ictimai-siyasi fikrinin böyük mütəfəkkir nümayəndəsidir. Onun dunyagörüşü özünəməxsus milli ideya və qərbçilik görüş və baxışlarının sintezindən ibarət olmuşdur. Öz istiqaməti etibarilə, Azərbaycanın milli-mənəvi dirçəlişi, hüquqi dövlətçilik və vətəndaş cəmiyyəti, demokratiya, insan azadlığı və hüquq bərabərliyi və s. bu kimi tarixi - klassik liberalizm çalarları ilə yoğrulmuş, ümumbəşəri mündəricəli bu dünyagörüşü həmin dövrdəki ziyalıların müəyyən qisminə xas olmuş dərin və rəngarəng məzmun daşımışdır. Həqiqi mənada, demək olar ki, Ə.Ağaoğlu dünyagörüşü, onu müasiri olduğu bir sıra Azərbaycan mütəfəkkirləri, publisistləri, ilahiyyatçı və hüquqşünasları, jurnalist və ədiblərindən orijinallığı ilə fərqləndirirdi. Bu fərq mütəfəkkirə elə bir elmi-publisistik, nəzəri-ideoloji, konseptual mahiyyət vermişdir ki, onu ciddi arqumentlərlə kosmopolit vətənpərvər adlandırmaq olar. Bu qiymət heç də, sadəcə olaraq, gəlişi gözəl sözlə və yaxud sensasiya xatirinə deyilmir. Çünki bu qənaət, məhz XIX əsrin sonları və XX əsrin ilk onilliklərində Qərb dünyasında, Avropada, eləcə də, onun təsiri ilə Rusiyada və islamın nüfuz və mövcudluq dairəsində meydana çıxmış inkişaf meyillərinin konteksti çərçivəsində fəaliyyət göstərmiş bizim mütəfəkkirin müxtəlif xarakterli ideya xətlərinin təfsiri əsasında yaranır.

Ə.Ağaoğlu dünyagörüşünün formalaşması, əsasən, iki fikir təmayülü ilə səciyyələnir: birincisi - artıq praktikada reallaşmış Qərbin sosial-mənəvi məzmunlu ümumbəşəri fikirlərinin getdikcə başqa regionlarda da qəbul edilməsi tendensiyası ilə; ikincisi - müxtəlif imperiyaların (Osmanlı imperiyası, Rusiya imperiyası və s.) dağılması nəticəsində xalqların milli dirçəliş, milli oyanma və onun real ifadəsi olan milli ideya və milli mənlik şüurunun meydana çıxması tendensiyası ilə.

Məhz bu amilləri tarixi və elminəzəri baxımdan, öz yaradıcılığında nəzərə alan Ə.Ağaoğlunun irsi Azərbaycanın bəhs etdiyimiz dövrdəki ictimai-siyasi fikrinin əsas meyillərini öyrənmək üçün metodoloji açarlardan birini verir. Təəssüf ki, bu cür mütəfəkkirlərin irsi uzun müddət məlum səbəblər ucbatından ictimai şüurumuzun diqqətindən kənarda qalmış və əgər hərdənbir yada salınmışsa da, yalnız mənfi planda, hətta demək olar ki, bolşevizm məfkurəsi baxımından müxalif, düşmən mövqe kimi xatırlanmışdır.

İndi Azərbaycanın mənəvi renesansı şəraitində artıq biz ədalətsizcəsinə unudulmuş görkəmli mütəfəkkirlərimizin adlarının və irslərinin xalqımıza qaytarılması zərurəti qarşısındayıq. Tarixi-adekvat, elmi-nəzəri düşüncə göstərir ki, öz mənəvi atalarını və liderlərini, xüsusilə, istedad və dünyagörüşlərinin miqyasına görə, Qərb və Şərq sivilizasiyasının yetişdirdiyi böyük alim və mütəfəkkirlər səviyyəsində duran şəxsiyyətlərini tanımadan heç bir xalq, həqiqi mənada, mənəvi zənginlik kəsb edə bilməz. Bu cür mütəfəkkirlər, o cümlədən, Ə.Ağaoğlu, sözün əsl mənasında, öz nəzəri istək və arzularında həmişə aktual olan "yolumuz hayanadır" tarixi sualın cavabını tapmağa çalışmışlar".

Görkəmli tədqiqatçı AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Əziz Mirəhmədov "Əhməd bəy Ağaoğlu" adlı fundamental monoqrafiyasında yazmışdır: "Gizlətmək lazım deyil ki, doğma Azərbaycanın, habelə, bütün Şərqin müasir, avropavari tərəqqi yoluna düşməsi naminə, nə az-nə çox, tam əlli il qələm çalıb-qızğın fəaliyyət göstərən, bir çox əsərləri bu gün, bizim mübarizələrlə dolu gərgin zamanımızda da faydalı olan Ağaoğlu ayrı-ayrı vaxtlarda fikrən büdrəyib demokratiyaya zidd mövqelərdən çıxış etmişdir. Bunu görməmək, yaxud nəzərdən qaçırmaq da, ümumiyyətlə, belə şəxsiyyətləri büsbütün inkar etməyi dövlət siyasəti səviyyəsinə çatdırmaq qədər pisdir.

Deməliyik ki, Şərqdə məşhur aforizmlərdən olan "xəsərəddünya vəl axirə" ("bu dünyada da, axirətdə də ağır dolanan") sözləri eynilə ona da aid edilə bilər. Çünki azərbaycanlı ədibə, mütəfəkkirə və xadimə ömrünün otuz ilini keçirdiyi Türkiyə ictimaiyyətində də müxtəlif dövrlərdə bir-birindən fərqli münasibət bəslənmişdir. Sağlığında o, bir müddət böyük vəzifə, nüfuz sahibi olub, sonralar, hətta şübhəli, etibarsız bir mühacir kimi cürbəcür sıxıntı və əzablar çəkmişdir ki, bütün bunların daha müfəssəl şərhi kitabçanın müvafiq bölməsində verilir.

Bizdə Ağaoğluna yanlış münasibətin sırf praktik səbəbi də vardı. Onun keçən əsrin doxsanıncı illərindən başlayaraq, əvvəlcə fransız və rus dillərində, bu gün nadir nüsxəyə çevrilmiş məxəzlərdə, sonra habelə, Azərbaycan, İran və türk mətbuatında çap etdirmiş olduğu elmi və publisist əsərlər pərakəndə halda, bədii-fəlsəfi traktatları və epistolyar irsi isə, əsasən, əlyazma şəklində qaldığına görə, həyat və fəaliyyətinin bir sıra çox mühüm cəhətləri dumanlara bürünmüşdü (xatirələrdə onun belə bir atmacası misal gətirilir: bütün yazdıqlarımı yığıb səhifəbəsəhifə bənd eləsəniz, İstanbuldan Şuşaya qədər uzanıb gedər).

Mətbu əsərlərindən bir çoxunun Bakı, Moskva və Leninqradın Mərkəzi Kitabxana və arxivlərində də olmaması sovet mütəxəssislərinin tədqiqat dairəsini məhdudlaşdırır, onların Ağaoğlunu, əsasən, bir publisist, tənqidçi və ictimai xadim kimi təqdim etmələrinə səbəb olurdu.

Müəllifin sağlığında Bakı, Kazan və İstanbulda kitab halında çap olunmuş əsərləri bunlardır: "Axund və islam" (rusca), "Türk hüquq tarixi; islamda qadın" (rusca ilk nəşrdə adı: "Jenşina po islamu i v islame"), "Türk mədəniyyəti tarixi", "Hüquqiəsasiyyə, "Dövlət və Fərd", "Sərbəst insanlar ölkəsində", "Üç mədəniyyət", "İngiltərə və Hindistan", "Etika" (Kropotkindən tərcümə).

Ölümündən sonra Türkiyədə çıxanlar: "Mən nəyim?", "İran və inqilabı", həyatının kəndisi tərəfindən yazılan bir parçası (C.Ağaoğlunun "Babamdan xatirələr" kitabında), "Könülsüz olmaz!", "İxtilalmı, inqilabmı?", "Sərbəst firqə xatirələri".

Hələ nəşr edilməmiş əsərlər: "Pəyami Səfayə axirətdən məktublar", "Yakutlar" (ruscadan tərcümə), "Malta xatirələri".

Aydındır ki, Şərq xalqlarının milli-azadlıq hərəkatında və mədəni yüksəlişində görkəmli xidməti olmuş xadimlərdən birinin müasir oxucudan gizlədilməsi həmin tarixi hadisələr haqqında təsəvvürlərin tamlığına mane olur, yeni dövr Azərbaycan intellektual-ədəbi həyatının ümumi mənzərəsini süni surətdə kasıblaşdırır, nəhayət, mənəvi mədəniyyətimizin bütün rəngarəngliyi, daxili dialektikası ilə qavranılmasını çətinləşdirirdi. Bu qısa oçerk Ə.Ağaoğlu barədə yığcam məlumat vermək, XX əsr Azərbaycan fikrini öyrənənlərə, az da olsa, kömək etmək məqsədi güdür. Nizami adına Ədəbiyyat İnstitutunda, eyni zamanda, Ə.Ağaoğlunun azərbaycanca və rusca külliyyatlarının elmi nəşri hazırlanır.

Həcmi bir o qədər böyük olmasa da, çox qısa bir müddətdə yazılmış monoqrafiyada Ağaoğlunun yarım əsrlik çoxcəhətli, çoxproblemli fəaliyyəti barədə müntəzəm və aydın təsəvvür vermək, şübhəsiz, asan başa gəlməmişdir. Buna nail olmaq, mütəfəkkir-xadimi tarixi inkişafda öyrənib səciyyələndirmək üçün xronoloji prinsiplə yanaşı, problemlər bölgüsü də tətbiq olunmuşdur. Nəinki bir il, bir ay, hətta bir həftə ərzində, eyni zamanda, bir neçə sahədə, bir neçə mühüm məsələ ilə məşğul olması da Ağaoğlunun fikir dünyasını açıb şərh etməkdə az mürəkkəblik törətmir".

Ə.Ağaoğlu tədqiqatçılarından Ülviyyə Hüseynova özünün "Əhməd bəy Ağaoğlunun ədəbi-bədii görüşləri" əsərində böyük mütəfəkkirin ədəbi-publisistik, idoloji-siyasi ideyalarını ətraflı tədqiq edərək yazır: "Azərbaycan ədəbiyyatının inkişaf tarixində əhəmiyyətli yer tutan XX əsrin əvvəlləri özünün ədəbi mərhələ xüsusiyyətləri, şəxsiyyətləri və ictimai-mədəni hadisələri ilə maraq doğurmaqdadır. Bu dövrün inqilabidemokratik fikir axtarışları, müstəqillik uğrunda mübarizə təcrübəsi, yeni ideya-bədii təmayülləri, modern sənət düşüncəsi çağdaş istiqlal hərəkatı üçün örnək məqamındadır.

XX əsrin əvvəllərində formalaşan ədəbi tənqidin müasir təfəkkürlü nümayəndələri indiki ideya-bədii axtarışlarımızın məhək daşını yonan, milli məfkurə uğrunda mübarizə hərəkatının meyarlarını müəyyənləşdirən şəxsiyyətlərdir. Elə buna görə də, onların ədəbi-tənqidi irsini araşdırmaq, sistemli tədqiq hədəfinə çevirmək müasir Azərbaycan ədəbiyyatşünaslığının elmi maraq dairəsinə yaxındır. Xüsusilə, ömrünü müxtəlif siyasi rejim daxilində yaşamış Əhmədbəy Ağaoğlu və bu qəbildən olan, mühacirət acısını dadan fikir adamlarının ədəbitənqidi fəaliyyəti çağdaş ictimaimədəni düşüncəmiz üçün çox gərəklidir.

Azərbaycan xalqının idrak-irfan tarixi müxtəlif düşüncə konsepsiyaları, fəlsəfi məktəblər və şəxsiyyətlərlə, habelə, çoxsaylı sənət görüşləri və estetik mizanlarla, "izm"lərlə zəngindir. Bu mənada, XIX əsrin sonu və XX əsrin əvvəlləri bir tarixi mərhələ olaraq, müstəsna səciyyə daşıyır və siyasi təfəkkürün güc artımı ilə müşahidə olunur. Həmin illərdə politoloji düşüncənin aktivləşməsi ictimai-siyasi xadimlərimizin fəaliyyətində və ədiblərimizin yaradıcılığında parlaq şəkildə özünü göstərirdi. Ayrı-ayrı şəxsiyyətlər polifonik-çoxçalarlı yaradıcılıq axtarışları ilə seçilir, ictimai-siyasi ideallarını bədii əsərlərində və publisistika yazılarında vəhdətdə ifadə edirdilər. Dövrün tanınmış ziyalıları arasında Əhməd bəy Ağaoğlunun xüsusi mövqeyi vardı. Onun yazılarında islam dini, tarix, fəlsəfə, etnologiya, mifologiya, panxristianizm, Şərq istibdadı, monarxizm, Şərq və Qərb qarşıdurması, yəhudilərin tarixi, Qərbdə reformasiya hərəkatı, respublikaçılıq və onun tarixi, ədəbiyyatda etnopsixologiya, İran, Türkiyə, Çin, Hindistan, İngiltərə, Rusiya və Fransa kimi ölkələrdə dövlətçilik tarixi və təcrübəsi... əsaslı yer tuturdu. Odur ki, ədib həmin ölkələrin ictimai-siyasi həqiqətləri ilə bədii düşüncə nümunələrini əlaqələndirməyə üstünlük verir, qarşılıqlı bəhrələnməni, Şərq-Qərb vəhdətini mədəni intibahın əsas göstəricilərindən sayırdı.

Ə.Ağaoğlu və onunla eyni ideya-estetik mövqedə dayanan Azərbaycan oğulları sovet idarəçiliyi rejimində və dövründə ideoloji cəhətdən "düşmən" sayılır, irsi siyasi məqsədlərlə "tədqiq və təhlil" olunur, ona panislamist, pantürkist, kosmopolit etiketi vurulur. Haqqında müsbət söz söyləmək yasaq və günah sayılırdı. İndi yeni ideya-siyasi mühitdə və zamanda bu görkəmli mütəfəkkirin irsi ilə mükəmməl tanışlıq, onu deməyə əsas verir ki, bir tək Azərbaycanda deyil, həm də Yaxın və Orta Şərq ictimai mühitində baş verən hadisələrə, ədəbimədəni faktlara operativ, elmi münasibət göstərən Əhməd bəy Ağaoğlunun yaradıcılığı xalqımızın intellektual mülkiyyəti fonunda əsaslı yer tutmağa layiqdir. Xüsusilə, indi dünyaya inteqrasiya olunduğumuz bir vaxtda ədibin islam aləmi kontekstində bəşərilik ideyalarını müdafiə etməsi, islam və xristianlıq əlaqələrinin mənəvi-ruhani dəyərlərə dayanıqlı özül üzərində qurulmasına haqq qazandırması, islam dininin uzaq Yaponiyada və İngiltərədə nüfuz qazanması və qorunması ilə bağlı mülahizələr son dərəcədə ibrətlidir".

Beləliklə, Ə.Ağaoğlunun idealı müstəqil, demokratik-hüquqi dövlət idealı bu gün artıq Azərbaycan Respublikasının timsalında gerçəkləşmişdir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 4 avqust

## Sosial şəbəkələr insanlarda hansı fəsadlar yaradır?



Britaniyalı alimlərin yeni tədqiqatlarına əsasən, "Facebook" və "Twitter" kimi sosial şəbəkələr insanların qeyri-adekvat və narahat hislər keçirməsinə səbəb olur. Eksperiment çərçivəsində sorğuda iştirak edənlərin 50 faizi bildirib ki, onların həyatı bu xidmətlərdən istifadəyə başladıqdan sonra mənfiyə doğru dəyişib.

Məlum olub ki, sosial şəbəkələr istifadəçilərdə natamamlıq kompleksi doğurur. Respondentlərin 75 faizi qeyd edib ki, sosial şəbəkələr onların yuxusuzluğuna səbəb olaraq istirahət etmələrinə ciddi maneə yaradır. İştirakçıların 25 faizi isə onlayn-mübahisələrdən sonra şəxsi və iş həyatında tez-tez problemlərin yarandığını bildiriblər. Bu halda, ümumdünya hörümçək torunun asılılıq yaratdığı ortaya çıxıb. Belə ki, respondentlərin 55 faizi sosial şəbəkələrdən istifadə imkanını itirdiyi halda özlərini narahat hiss etdiklərini deyiblər.

## Açıqlandı: Qatıq hamilə qadınlara çox faydalıdır

Qatıq hamilə qadınlara daha çox faydalıdır. Mütəxəssislərin fikrincə bu məhsul hamiləlik müddətində bolca istifadə edilməlidir. Ümumiyyətlə, qatıq qida məzmunu baxımından əhəmiyyətli zülal qaynaqlarından biridir. Həmçinin qatıqda ana bətnində inkişaf etməkdə olan dölün, sümük və diş köklərinin meydana gəlməsi, böyüməsi üçün lazım olan kalsium var. Xüsusilə hamiləliyin üçüncü ayında bədənin kalsiuma olan ehtiyacı artdığından lazımi kalsium almamış analar, sonrakı illərdə osteoporoz problemi ilə qarşılaşa bilərlər. Kalsium bədənin əzələ, ürək və sinir sistemi funksiyalarının yerinə yetirilməsində, qan laxtalanmasında və bəzi enzimatik fəaliyyətlərdə əhəmiyyətlidir.

Qatıq hamilə olanlarda yüksək təzyiq, astma, böyrək daşının meydana gəlməsi, diş çürüməsi, sümük problemləri və s. xətaliklərin qarşısını almağa kömək edir.

Xüsusilə səhər nahardan sonra qatıq istifadə edildiyində bağırsaqların işini nizamlayır, bağırsaqlarda olan təhlükəli və zərərli mikrobların çoxalmalarına mane olur. Bir sıra mütəxəssislərin fikrincə 2-3 stəkan süddə və ya qatıqda sağlam bir fərd üçün lazım olan gündəlik kalsium miqdarının ortalama 1000-1200 milliqramını qarşılamaq olar.

## Velosipeddə gündəlik gəzintilər infarkt riskini 50 faiz azaldır

Siz ofisdə işləyirsiniz? Hərəkətsiz həyat tərzi keçirməyə məcbursunuz? Hipodinamiya sizi çox gözlətməyəcək, o, insanı infarkta gətirib çıxarmağa qadirdir! Xoşbəxtlikdən, Britaniya alimləri ofis işçilərinin bu bəladan yaxa qurtarmasına kömək göstərməyin asan yolunu tapıblar. Onlar sadəcə avtomobillərdən velosipedlərə keçməyi təklif edilər. 10000 adamın iştirakı ilə aparılmış tədqiqatlar sübut edib ki, velosipeddə gündəlik gəzintilər infarkt xəstəliklərini 50 faiz azaldır. Belə nəticəyə nail olmaq üçün gün ərzində cəmi 6 km məsafə qət etmək yetər ki, bu da təxminən işə və evə gedilən yola bərabərdir.

Velosiped sürmək tciklik yükdür, belə məşqlər ürək əzələsinin vəziyyətinə daha yaxşı təsir göstərir. Bundan başqa, velosiped gəzintiləri artıq çəki ilə mübarizədə səmərəlidir. Bir saat velosipeddə gəzmək 300 kilokalori sərf etməyə, hər gün yarım saatlıq gəzintilər isə azı 5 kq atmağa imkan verir.

Velosiped sürmək - qadınların öz omba və sarğı formasını yaxşılaşdırması üçün ən yaxşı üsuldur. Bundan əlavə, velosiped sürmək qan dövranını yaxşılaşdırır və insanı müxtəlif durğunluq hallarından xilas edir.

## "Barselona"nın təklifi 120 milyona çatdı




"Barselona" "Liverpool"un futbolçusu Filipp Koutinyodan əl çəkmir. Apasport.az saytı "Daily Mail"ə istinadən xəbər verir ki, kataloniyalılar braziliyalı yarımmüdafiəçini transfer etməkdə israrlıdılar. 100 milyon avroluq təklifi qəbul edilməyən "Barsa" rəhbərliyi qarşı tərəflə yenidən danışıqlara başlayıb. Onlar ingilislərə yeni təklif göndəriblər. La Liqa təmsilçisi keçidin baş tutması üçün 120 milyon avro xərcləməyə hazır olduğunu bildirib. Koutinyo karyerasını İspaniyada davam etdirməyə razı olsa da, "Liverpul" onu buraxmaq istəmir. "Mersisaydlılar" "Barselona"nın yeni təklifini hələ cavablandırmayıblar. Qeyd edək ki, karyerası ərzində İtaliya "İnter"i, "Vasko da Qama" və "Espanyol" klublarında da çıxış etmiş Koutinyo 2013-cü ildən "Liverpul"un formasını geyinir. O, "qırmızılar"ın heyətində 182 oyunda 42 qola imza atıb.

## Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatı başa çatıb




Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatı avqustun 3-də başa çatıb. AZƏRTAC xəbər verir ki, çempionatın sonuncu günündə 50 metr məsafədən qarşıq hərəkətdə olan hədəfə atəşaçmada kişilər arasında fərdi yarışın qalibi İsveç təmsilçisi olub. Emil Martinsson 3955 xal toplayaraq qızıl medal qazanıb. Gümüş medala 392 xal toplayan rusiyalı Mixail Azarenko yiyələnib. Finlandiyalı Topi Hulkkonen isə 390 xalla ilk üçlüyü qapayıb.

Əlli metr məsafədən qarışıq hərəkətdə olan hədəfə atəşaçmada kişilər arasında komanda yarışının qalibi Rusiya təmsilçiləri olub. Mixail Azarenko, Maksim Stepanov, Dimitri Romanov ümumilikdə 1169 xal toplayaraq rəqiblərini üstələyib və fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Gümüş medalı 1167 xalla İsveç atıcıları Emil Martinsson, Jasper Nyberg, Rickard Johansson qazanıb. Finlandiyalı Topi Hulkkonen, Heikki Lahdekopi, Tomi-Pekka Heikkla 1161 xalla bürünc mükafata layiq görülüb. Əlli metr məsafədən qarışıq hərəkətdə olan hədəfə atəşaçmada kişi yeniyetmələr arasında yarışın qalibi isə Ukrayna təmsilçisi olub. İqor Kizima 387 xal toplayaraq qızıl medal qazanıb. İsveçrəli atıcı Berqstroem Andreas 379 xalla gümüş medala yiyələnib. Rusiya təmsilçisi Valeri Davidov 378 xal toplayaraq bürünc medala sahib olub. Bununla da Avropa çempionatına yekun vurulub.

## "Qalatasaray" "Mançester Siti"nin futbolçusunu transfer edir




"Qalatasaray" heyətinə yeni oyunçu cəlb edib. SİA-nın məlumatına görə, son olaraq "Mançester Siti"də çıxış edən Fernando bu gün Türkiyə klubu ilə müqavilə imzalamaq üçün İstanbula gedəcək. Braziliyalı yarımmüdafiəçi daha sonra klubun Avstriyadakı toplanışına qatılacaq. Qeyd edək ki, 30 yaşlı futbolçu 2014-2017-ci illərdə "Mançester Siti"də çıxış edib.

## La Liqa Neymarın PSJ-yə transferinə icazə verməyib



İspaniya Futbol Liqası (La Liqa) "Barselona"nın futbolçusu Neymarın PSJ-yə transferinə icazə verməyib. SİA-nın "As" nəşrinə istinadən yaydığı xəbərə görə, səbəb kimi braziliyalı hücumçunun transfer qiymətinin çox yüksək məbləğdə (222 milyon avro) olması göstərilib. Dünən Neymarın meneceri tələb olunan sənədləri imzalamaq üçün La Liqanın ofisinə gedib. Lakin qurumdan bu transferin FİFA-nın maliyyə "fair play" qaydalarına zidd olduğu bildirilib. PSJ-nin məsələ ilə bağlı FİFA-ya müraciət edəcəyi gözlənilir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500